# Müasir təhsil sistemləri. Problem və perspektivlər

*Etibar Axundov*

*Sahibkarlığın  və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF), departament rəhbəri*

Bu silsilə məqalələr SBİİYF “Məşvərət” bülleteninin 29 – 35 №-da (İyul, 2000 – Yanvar, 2001) çap olunub

*Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili, strateji üstün sahə elan edir və ölkələrinin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğunu etiraf edir. Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra təhsil sistemində islahatların aparılması zəruriyyəti ortaya çıxdı.*

*Sizə təqdim olunan bu məqalədə dünyanın bir çox ölkələrində gedən təhsil islahatları haqqında informatik məlumatlar verilməklə yanaşı, təhsil sahəsindəki problemlərin obyektiv səbəbləri açıqlanır və mövcud təhsil böhranının aradan qaldırılması üçün atılan zəruri addımlardan da danışılır.*

*Bizə elə gəlir ki, bu məqalədə açıqlanan müəyyən fikirlər ölkəmizdə gedən təhsil islahatları ilə məşğul olan dövlət  və qeyri-dövlət qurumları üçün maraqlı ola bilər.*

## 1. Preambula

***Təhsil, insanın həyat və əmək sahəsində sistemləşdirilmiş bilik, bacarıq və davranışları əldə etməsidir.***

Hər bir dövlətin gələcək inkişafı onun təhsil sistemindən mütənasib şəkildə asılı olub daimi diqqət tələb edir. Belə ki, bu gün məktəblərimizdə (ibtidai, orta, peşə, ali peşə və s.) təhsil alan şagird və tələbələr sabah müxtəlif sahələrin aparıcı mütəxəssislərinə və rəhbərlərinə çevriləcəklər. Bu gün bu şagird və tələbələrə verilən bilik, bacarıq və davranışların real səviyyəsi, bir neçə onillikdən sonra ölkəmizin ümumi səviyyəsinin göstəricisi olacaqdır.

Təhsil əsasən 2 hissədən – təlim və tərbiyədən ibarətdir. Bunlar arasında nisbət konkret tarixi dövrlə, sosial institutların səviyyəsi ilə müəyyən olunmuşdur. Bəşəriyyətin yarandığı ilk dövrlərdən başlayaraq orta əsrlərin başlanğıcına qədər, təhsil tərbiyə xarakteri daşıyırdı. Orta əsrlərdən başlayaraq iqtisadiyyatın inkişafı, coğrafi kəşflər, dövlətin qanun dayaqlarının inkişafı, elmi inkişaf, istehsalda yeni texnika və texnologiyaların tətbiqi və digər sosial institutların əmələ gəlməsi və inkişafı təhsilin təlim qolunun inkişafına səbəb oldu. XIX  əsrdən başalayaraq təhsildə mövcud texnokratik meyllər[1] təhsil sistemində insan tərbiyəsi sahəsində çox böyük problemlər yaratdı.

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkədə təhsil sistemində islahatlar aparılmasının zəruriliyi ortaya çıxdı. Təhsilin:

- keyfiyyətinin artırılması,
- beynəlmiləlləşdirilməsi,

---

[1] Təhsilin texnokratik inkişafı tərəfdarlarının fikrincə, elm və texnikanın inkişafı istehsal sahəsində yeni texnologiyaların yaranmasına səbəb olmaqla yanaşı, dövrün tələblərinə cavab verən yeni insanın formalaşdırılmasında ən əsas rol oynayır.

- idarəetmə mexanizmlərinin yaradılması,
- kadrların hazırlanması və attestasiya mexanizmlərinin yaradılması

təhsil sahəsində aparılacaq islahatların əsas istiqamətləri olub, təcili tədbirlərin görülməsini tələb edir.

## Təhsilin keyfiyyəti

Dünyadakı təhsil və onun problemləri bütün ölkələr üçün eyni deyil. Belə ki, YUNESKO təhsili ölkələrin sənayeləşdirilmə səviyyəsinə görə 3 kateqoriyaya ayırır:

- sənayeləşdirilməmiş ölkələrin təhsil sistemi;
- sənayeləşdirilən ölkələrin təhsil sistemi;
- sənayeləşdirilməsi qurtarmış ölkələrin təhsil sistemi.

Bu cür bölgünü təbii qəbul etmək olar, çünki məhz yüksək texnologiyaların yaradılması, idxal və ixracı, istismarı və b. məsələlər yüksək təhsil səviyyəsi tələb edir. Ölkənini sənayeləşdirilməsi və təhsil sisteminin inkişaf etdirilməsi paralel aparılmalıdır. Bu zaman təhsil sistemi səviyyəsininin ölkənin digər sosial institutlarının inkişaf səviyyəsindən bir addım irəli olmasına çalışmaq lazımdır. Ümumiyyətlə, hər hansı bir ölkənin sosial institutlarının gələcək inkişafı *elm – təhsil – istehsal* **üçlüyü** arasında əlaqə zəncirlərinin möhkəmliyi və elastikliyindən çox asılıdır. Keçmiş SSRİ-nin tənəzzülünün əsas səbəblərindən biri kimi *bu üçlük arasındakı əlaqə zəncirinin zəif olması və böhranlı anlarda qırılması* ilə izah etmək olar.

Azərbaycan dünyada öz karbohidrogen yataqları ilə məşhur olmaqla yanaşı, uzun illər neftçıxarma və neft emalı sənayesi sahəsində əldə etdiyi elmi-texnoloji nailiyyətlərlə tanınırdı. Keçmiş SSRİ-nin neft - maşınqayırma və neft emalı sənayesinin əsas müəssisələri Azərbaycanda yerləşmişdi, Azərbaycan Neft və Kimya İnstitutu (indiki Neft Akademiyası) dünyanın bu sahədə ən aparıcı elm-təhsil ocaqlarından biri idi. Yuxarıda qeyd etdiyimiz *elm – təhsil – istehsal* üçlüyü arasındakı əlaqələrin getdikcə zəifləməsi nəticəsində Azərbaycan 80-ci illərdən başlayaraq neft kimi strateji sahədə elmi-pedoqoji-texnoloji üstünlüyünü itirməyə başladı. Azərbaycan müstəqillik əldə edəndən sonra karbohidrogen yataqlarımızın istismarı üçün lazım olan zəruri neft avadanlıqlarının olmaması və ya keyfiyyətinin aşağı olması səbəbindən bu yeni avadanlıqları xaricdən baha qiymətə almağa məcbu olduq. Bundan başqa bu avadanlıqları quraşdırmaq, istismar etmək üçün lazım olan yüksək səviyyəli mütəxəssisləri xarici ölkələrdən dəvət etdik. «Dünyanın neft akademiyası[2]»nın bugünkü vəziyyəti yalnız təəssüf hissi doğurur...

İnkişaf etmiş ölkələrdə təhsil sahəsində əsas problem təlim və tərbiyənin keyfiyyət dərəcəsinin yüksəldilməsi olduğu halda, üçüncü dünya ölkələrinin bir çoxunda kütləvi savadsızlığın aradan qaldırılması olmuşdur.

İnkişaf etmiş ölkələrdə sosial institutların gələcək inkişafının bir başa keyfiyyətli təhsillə bağlı olması elan edilir. Məsələn, Yaponiya hökumətinin illik hesabatlarının birində deyilir: «...*Yaponiya öz yeni texnologiyalarının inkişafını təhsilin daha yüksək səviyyəsində və ölkənin yeganə sərvəti olan yapon xalqının intellektual səviyyəsinin artmasında görür. Bütün bunlar yapon iqtisadiyyatının mövcudiyyətinin və inkişafının əsasıdır*».

Təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı problemlərinin həlli müxtəlif beynəlxalq təşkilatlar tərəfindən də tələb olunur. NATO-nun müəyyən qurumları son illər ümumtəhsil, peşə və ali ixtisas məktəblərinin hazırladığı şagird və tələbələrin təhsil səviyyələrinin qaldırılması ilə əlaqədar aparılan bir çox təhsil proqram və layihələrini maliyyələşdirir. Bu zaman bu hərbi-siyasi birliyə daxil olan ölkələrdə təhsilin beynəlmiləl xarakter daşımasını, standart proqramların hazırlanmasını, təhsilin

[2] Uzun illər neft və neftlə bağlı sahələrdə aparıcı elmi-pedaqoji kadrlara malik olan Azərbaycana verilən ad.

səviyyəsinin yüksəldilməsini əsas vəzifə kimi qoyurlar. Hələ 60-cı illərin sonunda bu meyli hiss edən fransız pedaqoqu A.Veksler yazır: «*Hərbi xarakter daşıyan təşkilatın təhsil problemlərinə maraqlarını belə izah etmək olar ki, ümumtəhsil məktəblərini bitirmiş hərbi çağırışçı gənclərin səviyyələrinin aşağı olması yeni hərbi texnikadan səmərəli istifadə etməyə mane olur*». Təhsilin hər iki qolunun (təlim və tərbiyə) keyfiyyət göstəricilərinin qaldırılması ilə bağlı YUNESKO, YUNİSEF və digər bu kimi beynəlxalq təşkilatlar müxtəlif tədbirlər proqraqramları hazırlayır və maliyyələşdirir.

Üçüncü dünya ölkələrinin bir çoxunda sosial institutların zəif inkişafı təhsil səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Bu ölkələrdə yüksək ixtisaslı mütəxəssislərin yarıdan çoxunu xaricilər təşkil edir[3]. Əməkləri ucuz qiymətləndirilən yüksək ixtisaslı yerli mütəxəssislərin yerinə xarici ölkələrdən dəvət olunmuş «bahalı» mütəxəssislərə üstünlük verilir[4]. Bunun əsas səbəbini biz təhsilin keyfiyyət dərəcəsinin aşağı olmasında görürük.

«İntellektual» peşələrin sayı durmadan artmaqdadır və kütləvi xarakter daşıyır. Məsələn, vaxtilə kompüter operatoru peşəsi yalnız məhdud sayda mütəxəssislər tərəfindən əldə olunduğu halda, indi hər bir ali təhsilli mütəxəssisin kompüter «operator peşəsi»nə yiyələnməsi zəruridir[5]. İstehsalın yeni sahələrində fəhlələrin təhsil səviyyəsinin texniki-mühəndis heyətinin səviyyəsinə yaxınlaşması tələb olunur. Bu isə öz növbəsində:

- icbari təhsilin minimal səviyyəsinin artırılmasını;
- səməərəli təlim-tərbiyə proqram və metodlarının hazırlanmasını;
- pedaqoji kadrların hazırlıq səviyyəsinin yeni tələblər əsasında qurulmasını, mövcud kadrların ixtisasının vaxtaşırı artırılmasını;
- məktəbin (məktəbəqədər, ibtidai, natamam orta, peşə, ali peşə) maddi-texniki bazasının və normal fəaliyyəti üçün zəruri iqtisadi mexanizmlərin yaradılmasını və bununla bağlı normativ-hüquqi sənədlərin hazırlanmasını və s. tələb edir.

Təhsilin səviyyəsinin artırılması təmayülü «elitar» təhsilin «kütləvi» təhsilə çevrilməsini və gənclərin böyük bir hissəsinin ali təhsil almasını tələb edir. Bu isə öz növbəsində başqa problemlər törədir. Çünki təhsilin kəmiyyət ölçüləri (təhsil müəssisələrinin, pedaqoq və tələbələrin sayı və s.) təhsilin inkişaf səviyyəsinin göstəricisi ola bilməz. Təhsil müddətinin uzadılması, pedaqoq və tələbələrin sayının artırılması sonsuz olaraq davam edə bilməz. Halhazırda inkişaf etmiş ölkələrində təhsil sistemi «doymuş məhlul»a bənzəyir. Təhsilin sisteminin ekstensiv yolla inkişaf etdirilməsi qarşıya daha böyük problemlər çıxarır. Belə ki, təhsil sisteminin ekstensiv inkişafı bir çox hallarda təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olub. Bunun üçün inkişaf etmiş ölkələrdə «funksional savadsızlar»ın sayının artmasını göstərə bilərik. Belə ki, bu «funksional savadsızlar»ın demək olar ki, hamısı 8-9 illik icbari təhsil almışlar. Lakin inkişaf etmiş ölkələrdə təhsil səviyyəsinin aşağı düşməsi təmayülü hiss olunan kimi ölkənin bütün sosial institutları «həyəcan təbili» çalır[6].

---

[3] Nigeriyada 60%, Sudanda 70%, Zambiyada 80%.

[4] Bu meyl Azərbaycanda da özünü göstərir.

[5] Fərdi kompüterlərin əmlə gəlməsi və insan fəaliyyətinin bütün sahələrinə sirayət etməsi nəticəsində bir çox «elitar» kompüter peşələri kütləvi xarakter daşımağa başladı.

[6] YUNESKO-nun 1978-ci ildə təhsil sahəsində statistikanın standartlaşdırılması mövzusunda müəyyən etdiyi normativ aktda *savadlı* dedikdə «*... öz gündəlik həyatı haqqında sadə mətni yazıb-oxumağı bacaran, yazdığını və oxuduğunu anlayan...*» başa düşülür. Bu xüsusiyyətlərə tam malik olmayanlar **savadsız**, qismən malik olanlara **funksional savadsız** deyilir.
YUNESKO-nun bu normativ aktı KİV vasitəsilə yayılandan sonra ABŞ-ın məşhur qəzetlərindən biri olan “Krisçen Sayens Monitor” bir neçə ay sonra bu meyarlar əsasında ölkədə 23 milyon “funksional savadsız”ın olmasını elan etdi.

Funksional savadsızlıq bütün inkişaf etmiş ölkələrin təhsilində ən böyük problemlərdən biridir. Aydındır ki, Azərbaycanda da tam savadsız və funksional savadsızların miqdarı kifayət qədər çoxdur və artmaqda davam edir. Bunların miqdarını müəyyən etmək üçün müəyyən sorğuların aparılmasına ehtiyac var.

## Təhsilin beynəlmiləlləşdirilməsi

Avropada təhsilin «beynəlmiləlləşməsi» prosesi gedir. Bu əsasən Avropa ölkələrinin inteqrasiyası ilə əlaqədar olub, təbii xarakter daşıyır. 1949-cu ildə yaradılmış Avropa Şurasının əsas məqsədi humanitar sahədə əməkdaşlığın inkişaf etdirilməsinə yardım etməkdir: təhsil sahəsində beynəlxalq konvensiyaların hazırlanması, konfransların, seminarların, ekspertlərin yığıncaqlarının təşkili, təhsil və mədəniyyətlə bağlı informatik materialların yayılması və s. Avropa Şurasına daxil olan ölkələrin təhsil sistemləri bir-birindən köklü surətdə fərqlənir. Müxtəlif Avropa ölkələrində təhsil sistemlərindəki mövcud idarəetmə, maliyyələşdirmə, proqram, dərslik, metodika və digər sahələrdə fərqlər tədricən aradan qaldırılmaqdadır. Bu ölkələrin inteqrasiyası təhsil sistemlərinin də inteqrasiyasını tələb edir. Təhsil sahəsində geri qalmış ölkələrə həm beynəlxalq, həm də şuranın digər inkişaf etmiş ölkələri müxtəlif növ yardımlar edirlər (məsələn, İtaliyaya edilən maliyyə yardımları). Təhsilin səviyyəsinin bütünlükdə qalxması və eyniləşdirilməsi Avropa Şurası təşkilatı qarşısında ən əsas vəzifələrdən biri kimi elan olunur.

İşçi qüvvəsinin ölkələrarası miqrasiyası və transmilli sənaye komplekslərinin yaradılması peşə təhsili səviyyəsinin eyniləşdirilməsini tələb edir. Avropa ölkələrində peşə təhsili köklü surətdə bir-birindən fərqlənir. Məsələn, Fransanın mərkəzləşdirilmiş təhsil sistemində peşə təhsili müəssisələrində dərs yükünün 30%-dən çoxunu ümumtəhsil proqramları tutduğu halda, Almaniyada peşə məktəblərinin böyük qisminin özəl bölməyə aid olması ilə bağlı olaraq, ümumtəhsil proqramlarına ayrılan vaxt minimum təşkil edir.

Avropa ölkələrində təhsilin inteqrasiyasının qarşısını alan səbəblərdən biri də «dil» problemidir. 19-cu əsrdə fransız dili beynəlxalq dil statusu daşıdığı halda, indi ingilis dili birinci sıraya çıxmışdır. Avropa ölkələrinin bir çoxunda bir neçə dövlət dilinin olması[7] əlavə problemlər əmələ gətirib. Bəzi ölkələrdə xarici dilləri icbari öyrənmək sahəsində müəyyən addımlar atılıb. Məsələn, Fransa hökuməti öz ərazisində mövcud olan şirkətlərdən tələb edib ki, öz əmək haqqı fondunun 1,2%-ni xarici dili öyrənməyə ayırsın.

Azərbaycan Avropa və Asiya sərhədlərində yerləşmişdir. Biz daha çox «avropalı» olmağa çalışırıq. Azərbaycanın Avropa Şurasına daxil olması ölkəmizdə gedən təhsil islahatlarının məhz avropa standartları çərçivəsində aparılmasını tələb edir. Azərbaycanın geostrateji vəziyyəti, maddi sərvətləri, intellektual insan ehtiyatlarının və s. olması bizim ölkəmizi Avropa üçün «maraqlı» edir. Son illər ölkəmizdə təhsil islahatlarını aparmaq üçün dünya maliyyə institutları tərəfindən ayrılmış kreditlər və qrantlar bunu bir daha sübut edir.

Lakin bununla yanaşı, onu da qeyd etməliyik ki, təhsil dövlət siyasətinin əsas hissələrindən bir olub, daim diqqət mərkəzində olmalıdır. Keçmiş SSRİ-də təhsil sistemi kommunist ideologiyası əsasında yaradılıb və bu ideologiyaya xidmət edirdi. Bu təhsil sistemində milli və regional maraqlar öz əksini tapmamışdı. Bəşəriyyətin təhsil sahəsində əldə etdiyi bir çox mütərəqqi ideyalar «burjua ideyası» kimi damğalanır və mövcud təhsil sistemində öz yerini tuta bilmir - «sinfi mübarizə» süzgəcindən keçmirdi. Keçmiş SSRİ-nin yalnız ərazisi deyil, onun təhsil sistemi də «dəmir pərdələr» arxasında idi. İmperiyanın dağılması ilə əlaqədar «kommunist təhsil sistemi» öz özüllərini itirməyə başladı və Azərbaycana miras qalmış təhsil sistemi aşağıdakı problemlərlə üzləşdi:

- dövlət təhsil sistemini mərkəzləşdirilmiş qaydada idarə edə bilmədi;

---

[7] İrlandiyada irland və ingilis dili, Lüksemburqda fransız və alman, Belçikada niderland və fransız, İsveçrədə alman, fransız və italyan dilləri.

- təhsildə bərabərlik prinsipləri pozuldu;
- keçmiş iqtisadi əlaqələrin dağılması nəticəsində bir çox peşələr və «elmlər» öz aktuallığını itirdi;
- bazar iqtisadiyyatına keçidlə əlaqədar müasir texnologiyaların yaradılması və tətbiqi ilə əlaqədar yeni təhsil proqramlarının yaradılması, təhsil sistemində struktur dəyişikliklərin edilməsi mümkün olmadı;
- təhsil sisteminin 80-ci illərdən əsası qoyulmuş ekstensiv inkişaf meylləri daha da gücləndi[8];
- Təhsil müəssisələrinin maddi-texniki təminatı, pedaqoqların sosial müdafiəsi dövlət tərəfindən tam təmin edilmədi və təhsil sisteminin inkişaf etdirilməsi üçün lazım olan yeni sosial-iqtisadi mexanizmlər yaradılmadı və s.

Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası prosesi labüddür. Bununla yanaşı, keçmiş səhvlərin təkrarı yolverilməzdir. Yəni Azərbaycanda təhsil islahatları apararkən milli mənafelər nəzərə alınmalıdır. ***Təlim məsələlərində*** (ayrı-ayrı fənlərin tədrisinin plan və proqramlarında, yeni metodların yaradılmasında) Avropa ölkələrinin əldə etdiyi müsbət təcrübə müəyyən araşdırmalardan sonra ölkə təhsil sisteminə tətbiq oluna bilər. Təhsilin ***tərbiyə məsələlərində*** milli özünüdərk və dövlətçilik prinsipləri önə çəkilməlidir. Yüksək vətəndaş mövqeli insanların yetişdirilməsi təhsil sisteminin əsas vəzifəsidir.

Dinin dövlətdən ayrılması, «*...təhsilin elmi-dünyəvi xarakter daşıması*[9]» və digər bu kimi prinsiplərin həyata keçirilməsi təhsildə ateist tərbiyəsinin əsas olduğunu xarakterizə edir. Bu prinsiplər orta əsr Avropasında formalaşmışdır. Belə ki, Avropada din inkişafın müəyyən mərhələsində böyük bir maneəyə çevrildi. Xüsusilə təhsil sistemində din amilinin olması onun inkişafı üçün problemlər yaratdı. 200 il keçəndən sonra dinsizləşdirmə siyasəti təhsildə və ümumilikdə cəmiyyətdə daha böyük problemlər – narkomaniya, əxlaqsızlıq, oğurluq, qətl və digər qeyri-humanist hərəkətlərin əmələ gəlməsinin əsas səbəblərindən biri oldu. İndi **bir çox ölkələrin ümumtəhsil məktəblərində fakültətiv qaydada olsa da belə, dini humanizm ideyaları təbliğ olunur. Müqəddəs kitablardakı yüksək səviyyəli əxlaqi prinsiplərin olması onları bir çox təhsil ocaqlarının diqqət mərkəzinə çevirmişdir[10].** Biz bununla ümumtəhsil məktəblərində hər hansı dini ehkamların tədrisini nəzərdə tutmuruq. Bütün bunları deməkdə məqsədimiz ondan ibarətdir ki, təhsil islahatlarının əsas vəzifələrindən biri olan təhsilin humanistləşdirilməsi, şagird və tələbələrdə yüksək insani və əxlaqi keyfiyyətlərin formalaşdırılması işində biz üzümüzü müqəddəs kitablarda olan daimi həqiqətlərə doğru çevirməliyik. Təhsilin humanistləşdirilməsi məsələləri ilə bağlı geniş tədqiqat və metodoloji vəsaitlərə böyük ehtiyac var.

## 2. Təhsil sisteminin idarəetmə mexanizmləri

Dünyanın müxtəlif ölkələrinin təhsil sistemlərində apardıqları lokal və ya qlobal islahatların nəticələri dövlətin yaratdığı idarəetmə mexanizmlərinin səmərəliliyi ilə birbaşa əlaqəlidir. 80-ci illərin əvvəllərində aparılmış təqribi hesablamalara görə, hər 15 ildən bir yeni texniki sistemlər sinfi yaranır, bu sistemləri yaratmaq üçün lazım olan informasiya toplusu isə hər 8 ildən bir ikiqat artır[11]. Dövlətin bütün sosial təsisatları üzvi şəkildə bir-birlərinə bağlıdır və texnologiyaların belə sürətlə dəyişməsi bu texnologiyalardan birbaşa və dolayı yolla istifadə edən sosial təsisatların funksiyaları

[8] Belə ki, ABŞ-da təhsil sahəsində işləyən bir mütəxəssisə – 20 şagird/tələbə, Türkiyədə – 30 şagird/tələbə, Avropanın bir çox ölkələrində – 25 şagird/tələbə düşdüyü halda, Azərbaycanda 1 təhsil işçisinə – 7 şagird/tələbə düşür.

[9] Azərbaycan Respublikasının «Təhsil qanunu», 2-ci maddə

[10] İnternet şəbəkəsi ilə yayılmış «Amerikanın dini landşaftı» elektron jurnalında ABŞ-ın bir çox tanınmış şəxsləri təhsil müəssisələrində tərbiyə məsələlərində dini humanizm ideyalarından istifadə etməyi məsləhət görürlər. Bu istiqamətdə ABŞ prezidenti B.Klintonun məqaləsi daha çox diqqəti cəlb edir.

[11] «Автоматизация поискового конструирования: (Искуственный интеллект в машинном проектировании)»//Под ред. А.И.Половинкина, М., 1981.

ilə yanaşı, onların idarəetmə mexanizmlərini də operativ şəkildə dəyişməyi tələb edir. Qeyd etdiyimiz kimi, təhsil təsisatı dövlətin digər sosial təsisatlarının fəaliyyətinə birbaşa təsir etdiyi üçün təhsil sistemi üçün operativ və optimal[12] idarəetmə mexanizmlərini yaratmaq dövlətin ən vacib vəzifələrindən biridir. İnkişaf etmiş ölkələrdə təhsil sisteminin idarəetmə mexanizmlərinin dəyişmə sürəti kifayət qədər yüksəkdir. Bir çox ölkələrin təhsil təsisatlarındakı böhran məhz idarəetmə mexanizmlərində vaxtında, operativ şəkildə islahatların aparılmaması nəticəsində baş verir. İdarəetmə problemlərinin vaxtında həll edilməməsi təhsil sisteminin «problemsiz» sahələrində də böhran vəziyyətinin əmələ gəlməsinə səbəb olur.

Təhsil sisteminin mərkəzləşdirilmiş və mərkəzsizləşdirilmiş idarəetmə mexanizmləri ümumi anlamlardır, onların sərhədləri müəyyən olunmayıb. Təhsil sisteminin idaretmə mexanizmlərindən hansılarının dövlətin birbaşa nəzarəti altında olması, hansıların aşağılara – təhsil müəssisələrinə verilməsi məsələsi təhsil konsepsiyasında və təhsil qanununda müəyyən olunmalıdır. Bu cəhətdən Avropa Birliyi ölkələrində gedən proseslər diqqəti cəlb edir: təhsil sisteminin inteqrasiyası ilə əlaqəli olaraq idarəetmə mexanizmlərinin mərkəzsizləşdirilməsi ilə yanaşı (məsələn, Fransada), mərkəzləşdirilməsi (məsələn, Almaniyada və İngiltərədə) prosesi gedir.

Avropa Birliyi ölkələrində gedən konvergensiya (uyğunlaşdırma) prosesi nəticəsində təhsil sisteminin əsas prinsiplərinin müəyyən olunması, standartların hazırlanması, proqnozlaşdırma, qanunyardıcılığı kimi qlobal vəzifələr dövlətin mərkəzi aparatı tərəfindən həll olunsa da, digər idarəetmə mexanizmləri tamamilə bələdiyyələrə və tədris müəssisələrinə verilir[13].

Avropada təhsil sisteminin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, bir-birlərinə uyğunlaşdırılması prosesi gedən bir vaxtda Azərbaycanda Avropa təhsil sisteminin digər standartlarına (təhsilin fərdiləşdirilməsi, diferensiallaşdırılması, humanistləşdirilməsi, demokratikləşdirilməsi və s.) cavab verən, ancaq ifrat dərəcədə güclü mərkəzləşdirilmiş təhsil sisteminin yaradılması mümkün deyil. Fikrimizcə, Azərbaycanda təhsil sisteminin mərkəzləşdirilməsi istiqamətində atılan addımlar gələcəkdə Azərbaycanın Avropaya inteqrasiyası ilə bağlı böyük problemlər yaradacaq. Azərbaycan müstəqillik əldə edəndən sonra təhsil sistemində zəruri, fundamental islahatların aparılmaması, qeyd etdiyimiz kimi, dövlətin mərkəzləşdirilmiş qaydada təhsili idarə etmək iqtidarında olmaması nəticəsində qarşımıza daha böyük problemlər çıxardı. Hal-hazırda təhsil sisteminin idarəetmə mexanizmlərinin tamamilə birbaşa dövlətin mərkəzi aparatına (Nazirlər Kabineti və Təhsil Nazirliyi) verilməsi çox böyük büdcə vəsaitlərinin cəlb olunmasını tələb edir. İdarəetmənin güclü şəkildə mərkəzləşdirilməsi yalnız təhsil sahəsində bürokratik aparatın süni şəkildə artmasına xidmət edəcək, islahatların sürətini azaldacaq və təhsil islahatlarının aparılması nəticəsində gözlənilən nəticələr əldə edilməyəcək.

Əlbəttə, biz təhsil sistemində düşünülməmiş mərkəzsizləşdirilmiş idarəetmə mexanizmlərinin də yaradılmasını istəmirik. Çünki bu, öz növbəsində ölkəmizin təhsil sisteminə daha böyük fəsadlar gətirə bilər. Bunun üçün dövlətimizin digər sosial təsisatlarının başına gələn «hadisələri»[14] yada salmaq kifayətdir.

---

[12] Dövlətin digər sosial institutlarının tələbləri əsasında təhsil sistemində lokal və qlobal islahatların aparılması zəruriliyindən bu islahatların aparılmasını təmin edən idarəetmə mexanizmlərində də operativ dəyişikliklər etmək lazımdır. Bu zaman ölkənin sosial təsisatlarının (iqtisadiyyat, elm, hərb və s.) real imkanları və inkişaf perspektivləri nəzərə alınaraq optimal idarəetmə mexanizmləri yaradılmalıdır.

[13] «Образование в мире на пороге XXI века», М. 1991.

[14] Özəlləşdirmə, özünü maliyyələşdirmə və digər mərkəzsizləşdirilmiş idarəetmə formalarının (müvafiq normativ-hüquqi aktların və sənədlərin olmaması, icra-nəzarət mexanizmlərinin yaradılmaması nəticəsində) tətbiqi nəticəsində korrupsiya, kriminal faktların artması deklorativ qaydada qəbul olunmuş mərkəzsizləşdirilmiş dövlət mexanizmlərinin zəifliyini üzə çıxartdı.

## 2.1. Dövlətin təhsil siyasətində idarəetmə mexanizmləri haqqında

1992-ci ildə qəbul edilmiş «Azərbaycan Respublikasının Təhsil qanunu»nun ilk 2 maddəsində faktiki dövlətin təhsil sahəsində konsepsiyasının (dövlət siyasətinin) ümumi müddəaları sadalansa da, təhsil sisteminin idarə edilməsi sahəsində dövlətin aparacağı siyasətin istiqaməti müəyyən olunmur[15].

İnkişaf etmiş ölkələrin təcrübəsini nəzərə alaraq, fikrimizcə, təhsil sistemində idarəetmə mexanizmlərinə münasibətdə dövlət siyasəti aşağıdakıları əhatə etməlidir:

- Təhsil sisteminə münasibət. Təhsil ən üstün sahə, ölkənin sosial təsisatlarının gələcək inkişafının bünövrəsi olduğundan, dövlətin daimi nəzarəti altında olmalıdır. (Ümumi nəzarət və əlaqələndirmə mexanizmlərinin yaradılması).
- Təhsilin keyfiyyətinə münasibət. Təhsilin keyfiyyət göstəriciləri dünya standartlarından aşağı olmamalıdır. Buna uyğun olaraq dövlət standartları yaradılır. Dövlət mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrinin təlim-tərbiyə səviyyəsinin dövlət standartlarından aşağı olmamasına nəzarət etməlidir. (Dövlət standartlarının müəyyən edilməsi və təhsil müəssisələrinin attestasiya mexanizmlərinin yaradılması).
- Təhsilin idarə olunmasına münasibət. Təhsil sistemi «humanitar istehsalçı» olub, maksimum mərkəzsizləşdirilmiş idarəetmə mexanizmlərinə malik olmalıdır. Təhsil müəssisələrinin hüquqi şəxs kimi fəaliyyət göstərməsi üçün real şərait yaradılmalıdır. (Təhsil sisteminin müxtəlif pillələri üçün özünüidarə mexanizmlərinin yaradılması).
- Təhsil sistemində kadrlara münasibət. Ölkəni yaxın gələcəkdə idarə edəcək mütəxəssisləri yetişdirmək vəzifəsini yerinə yetirən kadrlar ən yüksək tələblər əsasında seçilməlidir. Müəllimlərin əməyinin qiyməti onların əldə etdiyi pedaqoji nəticələr əsasında müəyyən olunmalıdır. «Pedaqoji nəticələr əsasında əməyin qiymətləndirilməsi»[16] qaydalarının yaradılması və tətbiqi dövlət tərəfindən nizamlanmalıdır. Pedaqoji kadrların seçimi zamanı heç bir güzəştə yol vermək olmaz[17]. Azərbaycan Respublikasının pedaqoji kadrlarına olan real tələbatı müəyyən olunmalıdır. Təhsil sistemindəki pedaqoji kadrların ifrat sıxlığı təhsilin ekstensiv inkişafının nəticəsi olmaqla yanaşı, təhsil böhranın əsas səbəblərindən biri olmuşdur. («Pedaqoji nəticələr əsasında əməyin qiymətləndirilməsi» mexanizmlərinin yaradılması).
- Təhsilin iqtisadiyyatına münasibət. Dövlət təhsil müəssisələrinin maksimum özünümaliyyələşdirmə mexanizmlərini yaratmaqda maraqlıdır. Hər bir təhsil müəssisəsinin müxtəlif mənbələrdən maliyyələşdirilən fondu[18] olmalıdır. Dövlət uyğun qanunvericilik aktlarının, sənədlərinin yaradılması və onların icrasına nəzarət mexanizmləri[19] vasitəsilə təhsildə özünümaliyyələşdirmə sisteminin yaradılmasına şərait yaratmalıdır. («Təhsil müəssisələrinin birbaşa maliyyələşdirməsi» mexanizmlərinin yaradılması).

---

[15] Bu qanun qanunyaradıcılıq qaydalarına əməl olunmadan qəbul olunub. Belə ki, təhsil konsepsiyası olmadan, birbaşa təhsil qanunu hazırlanaraq, qəbul edilib.

[16] «Pedaqoji nəticələrə görə əməyin qiymətləndirilməsi» mexanizmini yaratmaq üçün məktəbə «humanitar istehsal» müəssisəsi, müəllimə «humanitar istehsalçı», şagirdə «humanitar məhsul» kimi baxmaq lazımdır. Bülletenimizin növbəti saylarında bu haqda daha geniş məlumat veriləcəkdir.

[17] Son vaxtlar müəllimlərin və ali məktəbə daxil olmaq istəyən abituriyentlərin müəyyən hissəsinə (qaçqın, şəhid ailəsi və s. statusları olan) attestasiya və ya qəbul imtahanları zamanı güzəştlərin edilməsi qətiyyən düzgün deyil.

[18] ABŞ-da ümumtəhsil məktəbinin büdcəsinin 50%-i həmin rayonda yaşayan əhalidən yığılan vergidən, 40%-i bələdiyyə büdcəsindən, yalnız 10%-i federal büdcədən (mərkəzləşdirilmiş) təşkil olunur. «Образование в современном мире: состояние и тенденции развития», М., 1986.

[19] Vergi, gömrük, maliyyə, sosial müdafiə və digər sahələrdə.

## 2.2. Təhsil qanunu və digər normativ hüquqi sənədlərdə idarəetmə mexanizmləri haqqında

Azərbaycan Respublikasının «Təhsil qanunu»nun 3-cü bölməsi («Təhsil sisteminin idarə olunması») tamamilə idarəetmə məsələlərinə həsr olunub. Qanunun bu bölməsi 17 maddədən (29-cu maddədən 45-ci maddəyə kimi) ibarətdir. Bu maddələrin təhlili onu göstərir ki, təhsilin idarə olunmasında, səlahiyyət və vəzifələrin bölünməsində qeyri-müəyyənliklər mövcuddur. Təhsilin idarə olunmasında səlahiyyət və vəzifələr dəqiq müəyyən olunmayıb. Məsələn, 30-cu maddədə (Azərbaycan Respublikasının Nazirlər Kabineti) və 31-ci maddədə (Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi) eyni səlahiyyət və vəzifələr hər iki quruma verilib[20]. Bu bölmənin ayrı-ayrı maddələri arasındakı ziddiyyətlər təhsil sistemində bəzi vacib məsələlərin həlli üçün əlavə problemlər yaradır.

1999-cu ildə qəbul olunmuş «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nda islahatların 1-ci mərhələsində (1999-cu ilin sonuna qədər) görüləcək əsas işlərdən biri kimi «Təhsil sisteminin idarə olunmasında səlahiyyətlərin bölüşdürülməsi, idarəetmənin demokratikləşdirilməsi mexanizmini yaratmaq» məqsədi qeyd olunur. Bu məqsədi yerinə yetirmək üçün tədbirin əsas strategiyası kimi «6.1. Təlim və tərbiyə prosesinin dinamikliyini və çevikliyini təmin edən yeni idarəetmə modelinin yaradılması ilə bağlı təkliflərin hazırlanması» mərhələsinin məntiqi davamı yoxdur. Yəni bu təkliflər normativ-hüquqi akt, sənəd formasını almazsa digər yeni idarəetmə mexanizmlərinin yaradılması, tətbiqi, tənzimlənməsi, nəzarəti haqqında danışmaq yersiz olar. Məhz yeni idarəetmə modeli (səlahiyyət və vəzifələri bölüşdürülmüş) təhsilin idarəetmə sisteminin özülünü təşkil edir. Digər idarəetmə mexanizmləri, o cümlədən:

- dövlət attestasiya və akkreditasiya sistemi;
- təhsil müəssisələrinin ekspertizası sistemi;
- təhsil sisteminin kadrlarla komplektləşdirilməsi sistemi;
- kadrların attestasiya sistemi;
- kadrların ixtisasının artırılması və yenidən hazırlanması sistemi və digər idarəetmə mexanizmləri bu modelə əsasən müəyyənləşməlidir.

Müasir tələblərə cavab verən təhsil sisteminin idarəolunması modelinin hüquqi bazasının və icra mexanizminin yaradılması, təhsil sahəsindəki islahatların birinci pilləsi olmalıdır. Təhsil sistemindəki islahatlar bu pilləni keçəndən sonra təhsil sisteminin digər sahələrində:

- təhsil sisteminin strukturunda;
- təhslin məzmununda;
- kadr təminatında;
- informasiya, tədris və elmi-metodiki təminatında;
- maddi-texniki bazasında[21] islahatların aparılması strategiyasından danışmaq olar.

Keçmiş SSRİ-dən miras qalmış təhsilin mərkəzləşdirilmiş idarəetmə mexanizmləri vasitəsilə müasir tələblərə cavab verən təhsil texnologiyalarını tətbiq etmək qeyri-mümkündür. Mövcud idarəetmə mexanizmlərində kosmetik dəyişikliklər aparmaqla təhsil sistemində zəruri islahatların aparılması mümkün deyil. Bunun üçün təhsil sisteminin köklü fərqli yeni idarəetmə modelinin yaradılması lazımdır.

---

[20] Təhsilin maliyyələşdirilməsi, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi və s.

[21] «Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı» sənədindəki təhsil sistemindəki sahələr bölgüsündən istifadə olunmuşdur.

Hal-hazırda təhsilin idarə olunmasına aşağıdakı dövlət qurumları və ictimai özünüidarə[22] orqanları cəlb olunublar:

- Azərbaycan Respublikasının Nazirlər Kabineti;
- Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi;
- Yerli təhsil orqanları (təhsil şöbələri);
- Yerli dövlət idarə orqanları;

İctimai özünüidarəetmə orqanları (təlim-tərbiyə müəssisələrinin ümumi yığıncaqları və şurası; təhsil işçilərinin rayon, şəhər konfransları və şuraları; təhsil işçilərinin respublika qurultayı və Azərbaycan Respublikasının Təhsil Şurası).

Təhsil sisteminin operativ və optimal idarəetmə mexanizmlərini hal hazırda mövcud idarəetmə subyektləri vasitəsilə idarə etmək mümkün deyil. Belə ki, təhsil qanunun 3-cü bölməsindəki maddələrdə təsbitedilmiş idarəetmə sistemi keçmiş SSRİ-nin uyğun təhsil sisteminin idarəetmə qurumundan bir o qədər də fərqlənmir. Məsələn, 1992-ci ildə qəbul olunmuş AR-nın «Təhsil qanunu»nun 37-ci maddəsinə görə, nizamnaməsi qeydiyyatdan keçmiş təhsil müəssisələri hüquqi şəxsdir. 1993-94-cü illərdə Azərbaycan Respublikasının əksər ümumtəhsil məktəblərinin nizamnamələri[23] qeydiyyatdan keçəndən sonra hüquqi şəxs statusunu alsa da real idarəetmə məsələlələrində formal müstəqilliyə malik olmuşlar. Təhsil müəssisəsinin əsas idarəetmə funksiyalarının böyük bir qismi rayon təhsil şöbələrində, Xalq Təhsili Nazirliyində cəmlənmişdir. 8 il müddətində təhsil sistemində köklü heç bir dəyişiklik baş verməmiş, məktəblər rayon təhsil şöbələrinin, onlar da öz növbəsində Təhsil Nazirliyinin idarəetmə qurumunun bir hissəsi olmuşdur. 1998-ci ildə əsaslı təmir və yeni inventarların alınmasına ayrılmış büdcə vəsaitinin (500 mln. manat) yalnız 50-60%-i xərclənmişdir. Məhz buna görə 1999-cu ildə əsaslı təmir və inventarların alınmasına ayrılmış büdcə vəsaiti azaldılaraq 400 mln. manat təşkil etmişdir[24]. Dövlət təhsil müəssisələrinin əsaslı təmirə böyük ehtiyacı olduğu bir vaxtda belə faktların olması bir daha təhsil sisteminin idarəetmə mexanizmlərinin yarıtmazlığına dəlalət edir.

Təhsil qanununun 35-ci maddəsində («Təlim-tərbiyə müəssisələrinin özünüidarəsi») təhsil müəssisələrinə verilmiş səlahiyyətlər onlar tərəfindən «könüllü» şəkildə istifadə edilməyib, rayon təhsil şöbəsinə və Təhsil Nazirliyinə verilib. Məsələn, ümumtəhsil məktəbləri kadrları idarəetmə sahəsindəki səlahiyyətləri yox dərəcəsindədir. Məktəblərin pedaqoji kadrları və müdiriyyəti «yuxarıdan» təyin olunur, dəyişdirilir, işdən azad edilir. Azərbaycan Xalq Təhsil Nazirliyi – 300 min işçisi olan, büdcə hesabına «yaşayan» bürokratik qurumdur[25]. Təhsil islahatları ilə bağlı olaraq digər bürokratik qurumlardan (Nazirlər Kabineti, yerli icra hakimiyyəti və b.) təhsil sahəsindəki səlahiyyətlərin (maliyyələşdirmə, təmir-tikinti, maddi-texniki təminat və s.) alınıb Təhsil Nazirliyinə verilməsi, Azərbaycan təhsil sisteminin ətalət əmsalının artmasına səbəb olacaq.

15 iyun 1999-cu il AR-nın prezidentinin «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramını» təsdiqləyən sərəncamı təhsil sistemində köklü islahatların aparılacağına inam yaradır.

Azərbaycanın maksimum mərkəzsizləşdirilmiş təhsil sisteminə keçməsi üçün zəruri normativ hüquqi-aktları və sənədləri qəbul etmək, onların icra mexanizmlərini yaratmaq, tənzimləmək və nəzarətini təşkil etmək lazımdır. Məhz bu addımlar atılandan sonra təhsil müəssisələrini «azadlığa» buraxmaq olar. Təhsil sistemində islahatlar proqramında müsbət addım kimi «... ali peşə ixtisas

---

[22] «Təhsil Qanunu»nun 34-cü maddəsindən məlum olur ki, bu özünüidarə orqanlarının yalnız təkliflər vermək hüququ var.

[23] Bu nizamnamələr Xalq Təhsili Nazirliyi tərəfindən hazırlanmış tipik nizamnamələr əsasında tərtib olunmuşdur.

[24] «Azərbaycan müəllimi» qəzeti, №5, 04.02.1999

[25] «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı», 1-ci cədvəl.

təhsili müəssisələrinə mərhələlərlə muxtariyyət verilməsi mexanizmini yaratmaq»[26] müddəasını qəbul etmək olar. Fikrimizcə, «Azərbaycan Respublikası fasiləsiz təhsil sistemi siyasəti yeridir. Dövlətin təhsil siyasəti aşağıdakı prinsiplərə əsaslanır: ... təhsilin dünya standartları səviyyəsində olması »[27] müddəasını nəzərə alaraq belə muxtariyyətin bütün təhsil müəssisələrinə şamil olunması məqsədəuyğun olar.

Təhsil sistemində aparılan islahatlarla bağlı yeni idarəetmə mexanizmlərini yaratmaq sahəsində görülən işlərin KİV vasitəsilə geniş işıqlandırılmasına böyük ehtiyac var. Bu sahədə zəruri olan hüquqi akt və sənədlərin, hərəkət proqramlarının – bir sözlə, yeni təhsil sisteminin idarəedilmə modelinin son variantları müsabiqə yolu ilə müəyyən olunmalıdır.

## 2.3. Təhsilin idapə edilməsi sistemi ilə bağlı qanunvericilikdə aparılması zəruri olan islahatlar proqramının əsas müddəaları

Qeyd etdiyimiz kimi, təhsil sistemində köklü islahatlar yalnız idaretmə sistemində uyğun islahatların aparılmasından birbaşa asılıdır.

Mülkiyyət formasından və spesifik xüsusiyyətlərindən asılı olaraq təhsil sistemini formal olaraq 3 bölməyə ayırmaq olar:

1. Dövlətin nəzarəti altında olan *ümumi dövlət təhsil bölməsi*;
2. Təhsillə məşğul olan özəl qeyri-hökumət qurumlarının nəzarəti altında olan *ümumi özəl təhsil bölməsi*;
3. Müdafiə Nazirliyinə, Milli Təhlükəsizlik Nazirliyinə, Daxili İşlər Nazirliyinə, Sosial Müdafiə Nazirliyinə, Səhiyyə Nazirliyinə birbaşa tabe olan təhsil müəssisələrini əhatə edən *xüsusi təhsil bölməsi.*

**Təhsil sistemini idarə edənlər onun səmərəli inkişafında daha çox marağı olan subyektlər olmalıdır.** Təhsilin başlıca subyektləri dövlət bölməsində Xalq Təhsili Nazirliyi və valideynlərin birbaşa iştirakı ilə yaradılmış Müəssisənin Təhsil Şurası, özəl bölmədə isə Xalq Təhsili Nazirliyi və təsisçilər olmalıdır.

Mərkəzsizləşdirilmiş təhsil sistemində hər üç bölməni idarə edən subyektlər və onların səlahiyyət və vəzifələri təhsil qanununda tam müəyyən olunmalıdır və islahatların birinci pilləsi «AR təhsil qanunu»nun III bölməsində («Təhsil sisteminin idarə olunması») uyğun dəyişikliklərin aparılması ilə başlamalıdır. Mərkəzsizləşdirilmiş təhsil sisteminin tələbləri əsasında aşğıdakı müddəaların əsas olaraq qəbul edilməsi və qanunda öz əksini tapması zəruri görünür.

### *2.3.1. Təhsili idarə edən subyektlər*

Mövcud qanunun 29-cu maddəsi təhsil sistemində real mövcud bölmələrin xüsusiyyətlərini nəzərə almamaqla yanaşı, faktiki bir-birinə tabe olan dövlət qurumlarını: AR hökumətini, Xalq Təhsili Nazirliyini və yerli təhsil orqanlarını təhsil sistemini idarə edən başlıca subyekt elan edir və təhsil sisteminin idarə olunması işində böyük çətinliklər yaranmasına səbəb olur, təhsil sistemində aparılan və ya gələcəkdə aparılması zəruri olan islahatlar üçün böyük hüquqi maneəyə çevrilir. İnkişaf etmiş ölkələrin təhsil sistemlərində təhsil müəssisələri aparıcı rol oynadığı halda, ölkəmizdə təhsil müəssisələrinin rolu nəzərəçarpacaq dərəcədən xeyli uzaqdır. Bunun əsas səbəblərindən biri real təhsillə məşğul olan təhsil müəssisəsinin idarəetmə subyekti kimi qəbul olunmamasıdır. Mərkəzsizləşdirilmiş təhsil sisteminin müxtəlif bölmələrində təhsili idarə edən subyektlər, onların vəzifə və səlahiyyətləri daha dəqiq müəyyən olunmalıdır. Məhz buna görə mövcud qanunun 29-cu maddəsində aşağıdakı müddəaların nəzərə alınmasını məqsədəuyğun sayırıq:

---

[26] «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı», «2.5.1. Təhsil idarəetmə orqanları səviyyəsində» bölməsi.

[27] «Azərbaycan Respublikasının Təhsil qanunu», 2-ci maddə

1. Təhsili idarə etmək üçün dövlət və ictimai özünüidarə orqanları sistemi yaradılır. Həmin orqanlar təhsil qanunvericiliyinin müəyyənləşdirdiyi səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir və qanunla qadağan olunmamış qaydada təşəbbüskarlıq fəaliyyəti göstərir. Təhsilin idarə olunması təhsil qanunu, müvafiq qanunvericilik aktları, əsasnamələr və təhsil müəssisələrinin nizamnamələri ilə tənzimlənir.
2. Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi və Təhsil Şuraları *dövlət təhsil bölməsində* təhsil sistemini idarə edən başlıca subyektlərdir.
3. Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi və özəl təhsil müəssisələrinin təsisçiləri *özəl təhsil bölməsində* təhsil sistemini idarə edən başlıca subyektlərdir.
4. Bir neçə nazirliyin və dini birliyin (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Sosial Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Xalq Təhsili Nazirliyi, Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi) idarəsi altında olan *xüsusi təhsil müəssisələrinin* idarəolunma mexanizmləri onlar arasında *razılaşdırılmış xüsusi normativ hüquqi sənədələr əsasında* aparılır.
5. Dövlət təhsil müəssisəsinin əsas idarəetmə orqanı Təhsil Şurasıdır. Təhsil Şurasının razılığı ilə müəssisənin idarə olunmasında yerli dövlət orqanları, mülkiyyət formasından asılı olmayaraq iqtisadi qurumlar, elmi-pedaqoji kollektivlər, peşə yaradıcılıq ittifaqları, cəmiyyətlər, ictimai-siyasi qurumlar və ictimaiyyət iştirak edir.
6. Xalq Təhsili Nazirliyi təhsil sistemində dövlətin təhsillə bağlı siyasətini həyata keçirən, təhsil qanunlarını icra edən başlıca orqandır. Təhsilin idarə olunması ilə bağlı Xalq Təhsili Nazirliyi ilə dövlət təhsil Müəssisələrinin Təhsil Şuraları və özəl təhsil müəssisələrinin təsisçiləri arasındakı səlahiyyət və vəzifələr bölgüsü təhsil qanunu ilə müəyyənləşdirilir. Təhsilin idarə olunması təhsil qanunu, müvafiq qanunvericilik aktları, təhsil orqanlarının əsasnamələri əsasında həyata keçirilir.

### *2.3.2. Xalq Təhsili Nazirliyi*

"Azərbaycan Respublikası təhsil qanunu"nun 30-cu maddəsinin ləğv olunaraq təhsil sahəsində Nazirlər Kabinetinə verilmiş vəzifə və səlahiyyətlərin Xalq Təhsili Nazirliyinə verilməsi daha düzgün olardı. Çünki Xalq Təhsili Nazirliyi dövlətin Nazirlər Kabineti qarşısında qoyduğu vəzifələri tamamilə yerinə yetirə biləcəyi halda, bu vəzifələrin təkrarən Nazirlər Kabinetinin üzərinə qoyulması lüzumsuzdur. Nazirlər Kabinetinin vəzifə və səlahiyyətləri öz qurumuna daxil olan Təhsil Nazirliyinin fəaliyyətinə nəzarət funksiyaları ilə məhdudlaşmalıdır.

Təhsil sistemində dövləti təmsil edən Xalq Təhsili Nazirliyi ilə bağlı mövcud qanunun 31-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun olardı:

Xalq Təhsili Nazirliyi əsas dövlət qurumlarının (Milli Məclis, Nazirlər Kabineti) müəyyən etdiyi təhsil siyasətini icra edən əsas orqan olub:

1. təhsil sahəsində vahid dövlət siyasətinin hazırlanmasında iştirak edir və onun həyata keçirilməsini tə`min edir;
2. mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrində (özəl və xüsusi təhsil müəssisələri daxil olmaqla) təhsil qanunvericiliyinin icrasına nəzarət edir;
3. dövlət, özəl və xüsusi təhsil bölmələrinin müxtəlif subyekt və obyektləri üçün dövlət standartlarının yaradılmasında iştirak edir və müəyyən olunmuş dövlət standartlarına riayət edilməsinə nəzarət edir;
4. təhsil sistemi üçün məlumat xidmətini, o sıradan,
    - "Vətəndaşların təhsil səviyyəsi" məlumat bankının yaradılmasını, aktuallaşdırılmasını[28];

---

[28] "Vətəndaşların təhsil səviyyəsi" məlumat bankı vasitəsilə idarəetmə məsələlərində ən çətin, indiyə qədər həll olunmamış bu problemləri həll etmək olar:

- kadrların seçilməsi, yerləşdirilməsi, attestasiyası;

- "Təhsil müəssisələrinin pasportu" məlumat bankının yaradılmasını, aktuallaşdırılmasını;
- təhsil sistemi ilə bağlı Azərbaycandan statistik məlumatların[29] toplanması, təhlili və təhsil sisteminin müxtəlif sahələrində müsbət və ya mənfi inkişaf meyllərinin müəyyən edilməsi vasitəsilə idarəolunma mexanizmlərində bu məlumatların nəzərə alınmasını;
- dünyada mövcud təhsil sistemləri (problemləri, inkişaf prespektivləri, təcrübələri, təhsil standartları və s.) haqqında məlumatların toplanması, təhlili və bu sahədə əldə olunan müsbət nəticələrin Azərbaycanın təhsil sisteminə tətbiqi ilə bağlı təkliflərin hazırlanmasını;
- təhsil müəssisələrinin idarə olunması ilə bağlı tövsiyə xarakterli nümunəvi əsasnamələrin, elmi-metodiki vəsaitlərin, tədris proqramlarının, dərsliklərin hazırlanması, ekspertizası, nəşri (kağızda və ya elektron vasitələrdə) və yayımının təşkilini;
- təhsil sisteminin aktual məsələlərini özündə əks etdirən qəzet və dərgilərin hazırlanması və nəşrini (kağızda və ya elektron vasitələrdə);
- nazirliyin və ona birbaşa tabe olan qurumların, müəssisələrin fəaliyyətinin işıqlandırılmasının şəffaflığını təmin etməyi gerçəkləşdirir.

5. təhsil qanunvericiliyində mövcud təhsil qanunu, hüquqi-normativ aktların qəbulu, dəyişdirilməsi, ləğvi ilə əlaqədar dövlətin uyğun qurumları qarşısında vəsatət qaldırır;
6. Azərbaycan Respublikasında təhsilin inkişafı ilə bağlı proqramları müsabiqə yolu ilə hazırlayır;
7. təhsil müəssisələrinin təftişini apararaq;
   - tədris binalarının,
   - texniki vasitələrin miqdar və keyfiyyətinin,
   - tədris proqramlarının,
   - metodik vəsait və dərsliklərin

   dövlət standartlarına uyğunlaşdırılmasına nəzarət edir;
8. öz tərkibində yaratdığı attestasiya komissiyası vasitəsilə dövlət standartları əsasında təhsil müəssisələri kadrlarının attestasiyasını aparırır, tələbə və şagirdlərin təlim-tərbiyə səviyyələrini müəyyənləşdirir;
9. kadrların təkmilləşdirilməsi və yenidən hazırlanması işini təşkil etmək üçün təhsil müəssisələrini yaradır və ləğv edir;
10. pedaqoji işçilərin və Təhsil Nazirliyi işçilərinin hazırlanması və yenidən hazırlanmasını təşkil edir;
11. təhsil sistemində mövcud problemləri tədqiq etmək, yeni təhsil texnologiyalarını yaratmaq, tətbiq etmək məqsədi ilə öz nəzdində "Təhsil Problemləri" elmi-tədqiqat institutunu yaradır;
12. dövlət büdcəsində təhsilə ayrılmış vəsaitlərin müəyyən olunmuş normativlər əsasında təhsil müəssisəsinin hesabına köçürülməsinə nəzarət edir;
13. Xalq Təhsili Nazirliyinə tabe olan yerli təhsil orqanlarını yaradır (rayon xalq təhsili şöbələrini), əsasnamələr əsasında onların vəzifə və səlahiyyətlərini müəyyən edir;
14. bütün təhsil bölmələrində mövcud təhsil müəssisələrinin nizamnamələrinin qeydiyyata alınması, lisenziyalaşdırılması, attestasiyası, akkreditasiyası qaydalarını müəyyən edir;

---

- pedaqoji nəticələr əsasında əməyin qiymətləndirilməsi;
- təhsil müəssisələrində təlim-tərbiyə işlərinin real vəziyyətinin müəyyən olunması

və s.

[29] Təhsil müəssisələrinin maliyyə vəziyyəti, kadr təminatı, təhsilin keyfiyyət və kəmiyyət ölçüləri və s.

15. normativlər əsasında mülkiyyət formasından asılı olmayaraq təhsil müəssisələrini qeydiyyata alır, lisenziya verir və dövlət təhsil qanunvericiliyini pozan müəssisələrin lisenziyasını geri alır;
16. təhsil müəssisələri maliyyə fondlarının işlərinə nəzarət edir;
17. Nazirlər Kabinetinin tələb və təklifləri əsasında fənlərin, dövlət əhəmiyyətli ixtisasların siyahısını müəyyən edir, yeni fənn və ixtisasları bu siyahıya əlavə edir və ya ondan çıxarır;
18. təhsilin maliyyələşdirilməsi üçün milli gəlirdən pay ayrılması, təhsillə bağlı respublika büdcəsinin, təhsilin inkişafı fondlarının formalaşdırılması barədə təkliflər verir;
19. aşağıdakılar üzrə dövlət normativlərinin müəyyən edilməsi üçün təkliflər hazırlayır:
    - təhsil müəssisələrinin maliyyəşdirilməsi;
    - pedaqoji işçilərin əmək haqqı və tələbələrin təqaüd  minimumları;
    - pedaqoji işçilərə, tələbə və şagirdlərə verilən güzəşt və imtiyazlar;
    - pedaqoji işçilərin, tələbələrin və şagirdlərin sosial müdafiəsinin norma və qaydaları;
    - təhsil sistemi işçiləri, tələbə və şagirdlər üçün fəxri adlar və mükafatların müəyyən olunması, təqdimi ilə əlaqədar vəsatət qaldırır;
20. sosial institutların tələb və təklifləri əsasında yeni kadrlara olan ehtiyacın kəmiyyət və keyfiyyət ölçülərini nəzərə alaraq, peşə-ixtisas, orta peşə-ixtisas, ali peşə-ixtisas dövlət təhsil müəssisələrindəki tələbələrin limitini müəyyən edir;
21. təhsil müəssisələrinin özünümaliyyələşdirməsini təmin etmək üçün onların sahibkarlıqla məşğul olacağı fəaliyyət sahələrini müəyyən edir.

Təhsil sisteminin idarəedilməsi bağlı mövcud qanunvericiliklə kəskin şəkildə mərkəzləşdirilmişdir. Qeyd etdiyimiz kimi, belə idarəetmə mexanizmləri ilə təhsildə islahatların aparılması, demək olar ki, qeyri-mümkündür[30]. Çünki, ümumiyyətlə, yüksək səviyyəli idarəetmənin əsas hissəsi olan özünüidarəetmə mexanizmləri mövcud qanunvericilikdə nəzərdə tutulmayıb. AR “Təhsil qanunu”nun 34 və 35-ci maddələrində idarəetmə orqanlarına özünüidarə səlahiyyətlərinin heç biri verilməyib, onlar yalnız “səmərəli” təkliflər vasitəsilə idarəetmədə iştirak edə bilər.

Təklif etdiyimiz mərkəzsizləşdirilmiş təhsil sistemində özünüidarə mexanizmi kimi dövlət bölməsini idarə edən ikinci əsas subyekt olaraq müəssisənin təhsil şurası nəzərdə tutulur[31]. Təhsil şurasını təhsilin keyfiyyət göstəricisinin yuxarı qaldırılmasında marağı olan və övladlarının daha yüksək təhsil almasını istəyən valideynlərin iştirakı ilə keçirilmiş konfrans seçir və bu zaman aşağıdakı əsas müddəaların nəzərə alınması məqsədəuyğun olardı.

### 2.3.3. Dövlət təhsil müəssisələrinin özünüidarə subyektləri

Dövlət təhsil müəssisələrində özünüidarə subyektləri aşağıdakılardır:

- təhsil müəssisəsinin konfransı;
- təhsil müəssisəsinin təhsil şurası;
- təhsil müəssisəsinin  nəzarət-təftiş komissiyası.

***<u>A) Təhsil müəssisəsinin konfransı</u>***

Dövlət təhsil müəssisələrinin (xüsusi təhsil müəssisələrindən başqa) ali orqanı müəssisənin konfransıdır.

---

[30] Hal –hazırda təhsildə aparılan islahatlar kosmetik xarakter daşıyır. Qəbul olunmuş islahat proqramında nəzərdə tutulan fundamental islahatların aparılması üçün kifayət qədər obyektiv və subyektiv maneələr var.

[31] İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər hansı bir sistemin idarəolunması işinə bu sistemin səmərəli işləməsində marağı olan subyektlər cəlb olunmalıdır.

Dövlət təhsil müəssisələrini, o cümlədən məktəbəqədər, ümumtəhsil, peşə-ixtisas, orta-peşə ixtisas, ali peşə-ixtisas müəssisələrini idarə etmək üçün (təlim-tərbiyənin, tədrisin keyfiyyətinin qaldırılmasının, təhsil müəssisəsinin iqtisadi, maddi-texniki ehtiyaclarını təmin etmək məqsədi ilə) müəssisədə pedaqoji işçilərin, valideynlərin (və ya onları əvəz edənlərin), 14 yaşı tamam olmuş yuxarı sinif şagirdlərinin, tələbələrin iştirakı ilə keçirilən konfransda bir il müddətinə:

- təhsil şurası, nəzarət-təftiş komissiyası, təhsil şurasının sədri seçilir;

- təhsil müəssisəsinin rəhbəri seçilir, onun vəzifə və səlahiyyətləri, əmək haqqı minimumu müəyyən edilir.

- Bu zaman aşağıdakı şərtlərə əməl olunması məqsədəuyğun olardı:

- təhsil şurası valideynlərin, yuxarı sinif şagirdlərinin, tələbələrin, pedaqoji işçilərin nümayəndələrindən təşkil olunur;

- nəzarət-təftiş komissiyası valideynlərin, yuxarı sinif şagirdlərinin, tələbələrin nümayəndələrindən təşkil olunur;

- təhsil müəssisəsinin rəhbəri təhsil şurasına 1 səslə daxil olur və təhsil şurasının sədri vəzifəsinə seçilə bilməz;

- dövlət təhsil müəssisələrinin təhsil şurasının, təhsil şurası sədrinin, nəzarət-təftiş komissiyasının, təhsil müəssisəsi rəhbərinin fəaliyyəti, onların vəzifə və səlahiyyətləri Konfransın qəbul etdiyi nizamnamə əsasında nizamlanır;

- konfransın qəbul etdiyi təhsil müəssisəsi nizamnaməsinin ayrı-ayrı müddəaları mövcud qanunla ziddiyyət təşkil etməməlidir. Əgər hər hansı müddəa ilə bağlı ziddiyyət əmələ gələrsə AR “Təhsil qanunu”nun müddəaları üstün hesab olunur;

- təhsil müəssisəsi nizamnaməsi Xalq Təhsili Nazirliyində qeydiyyatdan keçəndən sonra hüquqi qüvvəyə minir və bu nizamnamə əsasında yaradılmış təhsil şurası və nəzarət-təftiş komissiyası legitim sayılır.

***B) Təhsil şurası***

Dövlət müəssisələri təhsil şuralarının əsas vəzifə və səlahiyyətləri aşağıdakılardır:

1. təhsil müəssisəsinin konfransını çağırmaq və təhsil müəssisəsi ilə bağlı öz səlahiyyətləri çərçivəsində olmayan məsələlər barəsində, o cümlədən təhsil müəssisəsinin rəhbərinin, şura üzvlərinin vəzifədən azad edilməsi haqqında vəsatət qaldırır;

2. müsabiqə yolu ilə pedaqoji kadrları işə götürür, dövlət standartlarına cavab verməyən pedaqoji işçiləri işdən azad edir;

3. təhsil müəssisəsinin illik büdcəsini müəyyən edir və bu büdcəyə daxil olacaq maliyyə vəsaitlərinin mənbəyini və miqdarını müəyyənləşdirir;

4. təhsil müəssisəsinin maliyyə fondunu yaradır, gəlir-çıxara nəzarət edir, əlavə maliyyə kanallarını müəyyən edir;

5. pedaqoji işçilərin mövcud əmək haqqına əlavələrin miqdarını “pedaqoji nəticələr” əsasında müəyyən edir;

6. təhsil müəssisəsində təlim-tərbiyə işlərini birbaşa idarə edən müəssisə rəhbərinin əmək haqqına əlavənin miqdarını müəyyən edir;

7. təhsil müəssisəsində təlim-tərbiyə işlərinin, sosial müdafiənin və maddi-texniki bazanın səviyyəsini yüksəltmək üçün müxtəlif təyinatlı fondlar təşkil edir;

8. pedaqoji işçilərin səviyyəsini müəyyən etmək üçün onların attestasiyasını təşkil edir (Xalq Təhsili Nazirliyində uyğun attestasiya komissiyasına və ya attestasiya aparmaq lisenziyası olan hər hansı bir müəssisəyə müraciət etməklə);

9. təhsil müəssisəsində təlim-tərbiyə işlərinin dövlət standartlarından aşağı olmamasına nəzarət edir;

10. təhsili dünya standartları səviyyəsinə qaldırmaq məqsədilə tədris üçün nəzərdə tutulmuş yeni texnika və texnologiyaların alınmasını və tətbiqini təmin edir;

11. təhsil müəssisəsinin balansında olan əsas vəsaitlərin dövlət standartlarına cavab verməsi üçün tədbirlər planı hazırlayır və yerinə yetirir;

12. pedaqoji işçilərin, şagird və tələbələrin sosial müdafiəsi istiqamətində öz imkanları daxilində tədbirlər planı hazırlayır və yerinə yetirir;

13. təhsil müəssisəsinin qeyri-pedaqoji işçilərini təyin edir və onların əmək haqqı miqdarını müəyyənləşdirir;

14. təhsil müəssisəsinin maraqlarını dövlətin müxtəlif qurumları qarşısında müdafiə edir;

15. maliyyə imkanlarından asılı olaraq, təhsil müəssisəsi konfransının qərarı ilə təhsil şurasının icra aparatını yaradır, daimi və ya müvəqqəti işlərlə bağlı əmək müqavilələri bağlayır.

***S) Nəzarət-təftiş şurası***

Dövlət müəssisələri nəzarət-təftiş şurasının əsas vəzifə və səlahiyyətləri:

1. təhsil şurasının, təhsil müəssisəsi rəhbərinin təhsil müəssisəsinin nizamnaməsinə riayət edib-etməməsini yoxlayır, qarşıya çıxan problemlərin həlli mümkün olmasa təhsil müəssisəsinin konfransını çağırır;

2. təhsil müəssisəsi pedaqoji işçilərinin, şagirdlərin (tələbələrin) təhsil müəssisəsi nizamnaməsinə riayət edib-etməməsini yoxlayır və əlaqədar problemi həll etmək üçün təhsil müəssisəsinin rəhbərliyi və ya təhsil şurası qarşısında vəsatət qaldırır;

3. təhsil müəssisəsi işçilərinin, şagird və tələbələrin, valideynlərin verdiyi şikayət ərizələrini yoxlayır və onları öz səlahiyyətləri çərçivəsində həll edir;

4. təhsil müəssisəsi fondlarının gəlir-çıxarına nəzarət edir.

***D) Dövlət təhsil müəssisəsinin rəhbəri***

Təhsil müəssisəsi konfransının seçdiyi dövlət təhsil müəssisəsi rəhbərinin səlahiyyət və vəzifələri əsasən aşağıdakı müddəalardan ibarətdir:

1. təlim-tərbiyə prosesini planlaşdırır, onun həyata keçirilməsinə nəzarət edir;

2. təlim-tərbiyə proqramlarının dövlət standartlarına cavab verməsinə nəzarət edir;

3. aşağıdakı məsələlərlə bağlı təhsil şurası qarşısında vəsatət qaldırır:

- pedaqoji işçilərin attestasiyası;
- pedaqoji işçilərin yenidən hazırlanması;
- pedaqoji işçilərin əmək haqqının "pedaqoji nəticələr" əsasında müəyyən olunması;
- pedaqoji işçilərin, şagird və tələbələrin sosial müdafiəsi;
- pedaqoji işçilərin, şagird və tələbələrin mükafatlandırılması;

- əsas vəsaitlərin, texniki-təlim vəsaitlərinin bərpası, alınması, balansdan silinməsi;
- pedaqoji işçinin, şagird və ya tələbənin təhsil müəssisəsindən azad edilməsi.

4. təhsil müəssisəsində təhsilin səviyyəsinin yüksəldilməsinə konfrans qarşısında birbaşa cavabdehlik daşıyır;

5. təhsil müəssisəsinin daxili nizam-intizamının təşkil olunmasına birbaşa nəzarət edir;

6. öz müavinlərini (tədris və tərbiyə üzrə) təyin və azad edir.

### ***2.3.4. Özəl təhsil müəssisələrinin özünüidarə subyektləri***

Bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkə daxilində təhsil sahəsində də özəl bölmənin əmələ gəlməsi prosesi gedir. Özəl bölmədə təhsilin səviyyəsi ilə bağlı eyni zamanda müsbət və mənfi meyllər özünü göstərir. Bu isə təhsil qanunvericiliyində idarəetmə mexanizmlərinin tənzimlənməsi qaydalarının dəqiq müəyyən olunmamasının nəticəsidir. Belə ki, AR "Təhsil qanunu" qəbul olunarkən (1992-ci ildə) təhsilin özəl bölməsi yox dərəcəsində idi və ya təzəcə formalaşmağa başlamışdı. Qısa müddətdə müxtəlif səviyyəli onlarla özəl təhsil ocağı yaradıldı. Özəl təhsil müəssisələrinin (xüsusilə ali məktəblərin) "*yağışdan sonra göbələk kimi artması*" təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət etmədi. Məqsədi həqiqi təhsil vermək (Xəzər, Qərb Universitetləri kimi) olan özəl təhsil ocaqları ilə yanaşı, sırf kommersiya məqsədi ilə açılmış "*təhsil ocaqları*" Azərbaycan təhsil sistemində əlavə problemlərin əmələ gəlməsinə səbəb oldu.

İnkişaf etmiş ölkələrdə özəl təhsil bölməsi təhsil sisteminin önəmli hissəsini təşkil etməklə yanaşı, yeni təhsil texnologiyalarının yaradılması sahəsində aparıcı rol oynayır. Bu ölkələrin siyasətində "xalq təhsili" ilə yanaşı özəl təhsil bölməsinin inkişaf etdirilməsinə də qayğı ilə yanaşırlar. Özəl təhsil müəssisələrində təhsilin səviyyəsi əsasən "xalq təhsili" müəssisələrindən yuxarı olur. Bunun da əsas səbəblərindən biri yeni təhsil texnologiyalarının (idarəetmə, təlim-tərbiyə, informasiya təminatı sahələrində və b.) daha operativ tətbiq olunmasındadır.

Ölkəmizdə mövcud özəl təhsil müəssisələrinin əksəriyyətinin verdiyi təhsilin səviyyəsi dövlət təhsil müəssisələrindən aşağıdır. Mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrinə (məktəbəqədər təhsil müəssisəsindən başlayaraq) lisenziyaların verilməsi qaydaları müəyyən olunmalı, maddi-texniki təchizat, kadr potensialının aşağı həddini müəyyən edən dövlət standartları hazırlanmalıdır[32].

Özəl müəssisələrin idarəetmə mexanizmləri haqqında AR "Təhsil qanunu"nun 38-ci maddəsindəki müddəalar özəl təhsil bölməsində idarəetmə mexanizmlərini tam əhatə etmir. Məsələn, "bu müəssisəsinin təsisçiləri təhsilin dövlət standartlarına müvafiq qurulmasına məsuliyyət daşıyırlar..." müddəasında özəl təhsil müəssisəsindəki standartların dövlət standartları ilə müqayisəsinin necə aparılması qaydaları haqqında bir söz deyilmir.

Qanunun 38-ci maddəsi "Qeyri-dövlət təlim-tərbiyə müəssisələrinin idarə olunması" adlansa da mövzuyla bağlı konkret idarəetmə mexanizmləri haqqında heç bir müddəa yoxdur. Yalnız əldə olunan gəlirin necə sərf olunması haqqında tövsiyə xarakterli müddəalar var. Bu maddənin müddəalarını (bir neçə müddəanı istisna etməklə) "Təhsil qanunu"nun 53-cü maddəsinə ("Təlim-tərbiyə müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyəti") əlavə etmək olar (əgər orada uyğun müddəa yoxdursa).

Bunları nəzərə alaraq AR "Təhsil qanunu"nun 38-ci maddəsində aşğıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirik.

[32] Bu sahədə müəyyən işlər görülüb. Məsələn, "Orta ixtisas təhsili müəssisələrinin, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar" Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli 203 saylı əmri ilə təsdiq edilmişdir.

Özəl təhsil bölməsinin əsas idarəetmə subyektləri aşağıdakılardır:

- Xalq Təhsili Nazirliyi;
- özəl təhsil müəssisəsinin təsisçiləri.

Xalq Təhsili Nazirliyinin idarəetmə sahəsində vəzifə və səlahiyyətləri AR "Təhsil qanunu"nun 31-ci maddəsində müəyyən olunur.

Özəl təhsil müəssisəsinin nizamnamə müddəalarının yerinə yetirilməsinə nəzarət edən, valideynlərin, yaşı 14-ə çatmış şagirdlərin və tələbələrin iştirakı ilə keçirilmiş konfransda nəzarət-təftiş komissiyası seçilir (bu komissiyanın tərkibinə təsisçilər və ya onların nümayəndələri daxil ola bilməz).

***A) Özəl təhsil müəssisəsinin təsisçiləri***

Özəl təhsil müəssisəsi təsisçilərinin əsas vəzifə və səlahiyyətləri aşağıdakılardır:

1. dövlət və vətəndaşlar qarşısındakı bütün öhdəliklərini ödəmək şərti ilə təhsil müəssisəsini bağlayır, istiqamətini dəyişir;

2. özəl orta ixtisas, peşə ixtisas və ali təhsil müəssisələrində ayrı-ayrı ixtisasları bağlayır və ya yeni ixtisasları açır;

3. özəl məktəbəqədər, ibtidai və orta təhsil müəssisələrində qeyri-əsas maraq, fənn (ixtisas) sinifləri açır və bağlayır;

4. pedaqoji kadrları işə götürür, dövlət standartlarına cavab verməyənləri işdən azad edir;

5. təhsil müəssisəsinin rəhbərini, onun müavinlərini təyin edir;

6. pedaqoji işçilərin əmək haqqı miqdarını (əmək müqaviləsi əsasında) müəyyən edir;

7. təhsil müəssisəsində təlim-tərbiyə işlərinin, sosial müdafiə və maddi-texniki bazanın səviyyəsini yüksəltmək üçün müxtəlif təyinatlı fondlar təşkil edir;

8. pedaqoji işçilərin səviyyəsini müəyyən etmək üçün onların attestasiyasını təşkil edir (Xalq Təhsili Nazirliyində uyğun attestasiya komissiyasına və ya attestasiya aparmaq lisenziyası olan hər hansı bir müəssisəyə müraciət etməklə);

9. təhsil müəssisəsində təlim-tərbiyə işlərinin dövlət standartlarından aşağı olmamasına nəzarət etmək əsas vəzifələrdən biridir və bununla əlaqədar dövlət qarşısında məs'uliyyət daşıyır;

10. təhsilin dünya standartları səviyyəsinə qaldırmaq məqsədilə tədris üçün nəzərdə tutulmuş yeni texnika və texnologiyaların alınmasını, tətbiqini təmin edir;

11. təhsil müəssisəsinin balansında olan əsas vəsaitlərin dövlət standartlarına cavab verməsi üçün tədbirlər planını hazırlayır və yerinə yetirir;

12. təhsil müəssisəsinin qeyri-pedaqoji işçilərini təyin edir və onların əmək haqqı miqdarını müəyyənləşdirir;

13. təhsil müəssisəsinin maraqlarını dövlətin müxtəlif qurumları qarşısında müdafiə edir.

***B) Özəl təhsil müəssisəsinin nəzarət-təftiş şurası***

Özəl təhsil müəssisələri nəzarət-təftiş şurasının əsas vəzifə və səlahiyyətləri:

1. təhsil müəssisəsi pedaqoji işçilərinin, şagirdlərin (tələbələrin) təhsil müəssisəsi nizamnaməsinə riayət edib-etməməsini yoxlamaq, problemi həll etmək üçün təhsil müəssisəsinin rəhbərliyi və ya təsisçilər qarşısında vəsatət qaldırmaq;

2. şagird-tələbələr, valideynlər tərəfindən verilmiş şikayət ərizələrini yoxlamaq, öz səlahiyyətləri çərçivəsində həll etmək;

3. təhsil müəssisəsinin rəhbərinin təhsil müəssisəsi nizamnaməsinə riayət edib-etməməsini yoxlamaq, problemi həll etmək üçün təsisçilər qarşısında vəsatət qaldırmaq;

4. təsisçilərin təhsil müəssisəsi nizamnaməsinə riayət edib-etməmələrini yoxlamaq, problemin həlli mümkün olmasa təhsil müəssisəsiin konfransını çağırmaq və ya Xalq Təhsili Nazirliyinin uyğun qurumuna müraciət etmək;

***S) Özəl təhsil müəssisəsinin rəhbəri***

Özəl təhsil müəssisəsinin təsisçiləri tərəfindən təyin olunmuş özəl təhsil müəssisəsi rəhbərinin səlahiyyət və vəzifələri əsasən aşağıdakılardan ibarətdir:

1. təlim-tərbiyə prosesini planlaşdırır, onun həyata keçirilməsinə nəzarət edir;

2. təlim-tərbiyə proqramlarının dövlət standartlarına cavab verməsinə nəzarət edir və bununla bağlı təsisçilər qarşısında məsuliyyət daşıyır;

3. aşağıdakı məsələlərlə bağlı təsisçilər qarşısında vəsatət qaldırır:

- pedaqoji işçilərin attestasiyası;
- pedaqoji işçilərin yenidən hazırlanması;
- pedaqoji işçilərin əmək haqqının "pedaqoji nəticələr" əsasında müəyyən olunması;
- pedaqoji işçilərin, şagird və tələbələrin mükafatlandırılması;
- əsas vəsaitlərin, texniki-təlim vəsaitlərinin bərpası, alınması, balansdan silinməsi;
- pedaqoji işçinin, şagird və ya tələbənin təhsil müəssisəsindən azad edilməsi;

4. təhsil müəssisəsində təhsilin səviyyəsinin yüksəldilməsinə özəl təhsil müəssisəsinin təsisçiləri qarşısında birbaşa cavabdehdir;

5. təhsil müəssisəsinin daxili nizam-intizamının təşkil olunmasına birbaşa nəzarət edir;

### 2.3.5. Xüsusi təhsil müəssisələrinin özünüidarə subyektləri

Əvvəlcədən qeyd etdiyimiz kimi, əsas idarəetmə subyektlərinin sayı müxtəlif olan xüsusi təhsil müəssisələrinin idarəolunma mexanizmləri onlar arasında razılaşdırılmış xüsusi normativ hüquqi sənədlər əsasında aparılır.

Xüsusi təhsil müəssisələrinin hamısında AR təhsil qanunvericiliyinin müəyyən etdiyi çərçivələr daxilində Xalq Təhsili Nazirliyi əsas idarəetmə subyekti kimi çıxış edir.

Xalq Təhsili Nazirliyinin razılığı olmadan heç bir xüsusi təhsil müəssisəsi lisenziya ala bilməz.

Xarici ölkə dövlətlərinin, vətəndaşlarının xüsusi təhsil müəssisəsi təşkil etməsinə icazə verilmir.

Xüsusi təhsil müəssisələrində özünüidarə mexanizmlərini təsisçilər müəyyən edir və bu, öz əksini müəssisənin nizamnaməsində tapır.

Ayrı-ayrı Azərbaycan vətəndaşlarının təsis etdikləri xüsusi təhsil müəssisələrində dövlətin uyğun qurumu həmtəsisçi hüququna malikdir.

### 2.3.6. Təhsil sisteminin idarə olunmasına cəlb edilmiş subyektlər haqqında

İnkişaf etmiş ölkələrin təhsil sistemlərinin idarə olunmasında təkcə dövlət qurumları deyil, həmçinin özəl bölmə də fəal surətdə iştirak edir. Bu ölkələrin müxtəlif şirkətləri yüksək səviyyəli mütəxəssisləri işə cəlb etmək üçün küllü miqdarda xərclər çəkir. Yüksək səviyyəli mütəxəssislərə olan ehtiyacı ödəmək üçün bəzi şirkətlər hələ orta məktəb partası arxasında oturan istedadlı şagirdləri seçir, onların gələcək talelərini izləyir, müxtəlif müsabiqə və olimpiadaları maliyyələşdirir. Bundan başqa, ali ixtisas müəssisələri və şirkətlər arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr bağlanır ki, bunlar da öz növbəsində şirkətin gələcək inkişafına yardım edir. Bu cür əməkdaşlıq yaxşı nəticələr verir - yüksək ixtisaslı mütəxəssis hazırlanır[33].

Bizdə isə əks proses gedir. İnkişaf etmiş ölkələrin üçüncü dünya ölkələrində apardıqları “beyin ovlanması” siyasəti son vaxtlar Azərbaycanda da özünü göstərir. Bu “beyin ovçuları”nın emissarları təhsil ocaqlarımızda “ova” çıxırlar. Bu proseslərə biganəlik bizdə böyük təəssüf hissi yaradır. Belə mənfi proseslərin qarşısı alınmasa yaxın gələcəkdə Azərbaycanda yüksək ixtisaslı mütəxəssislər tükənəcək.

İnkişaf etmiş ölkələrdə təhsil və mədəniyyət sahəsinə ayırdıqları maliyyə köməyinə görə şirkətlər qismən və ya tamamilə vergidən azad olunur. Bu təcrübənin Azərbaycan vergi qanunvericiliyində nəzərə alınması məqsədəuyğun olardı.

Hal-hazırda ölkədə özünüidarə orqanları - bələdiyyələr yaradılır. Fikrimizcə, bələdiyyələr təhsil sahəsində keçmiş icra hakimiyyətlərindən daha fəal mövqe tutacaq. Xüsusilə kənd və qəsəbəni əhatə edən xırda bələdiyyələrin təhsil sahəsində özünüidarədə köklü dəyişiklərin edilməsi üçün real şərait yaradacağına şübhə yoxdur. Bu, inkişaf etmiş ölkələrin təcrübəsindən aydın görünür.

Yerli hakimiyyət orqanları, özəl və dövlət şirkətləri, ictimai birliklər təhsil müəssisələri ilə bağladıqları müqavilələr vasitəsilə təhsil sisteminin idarə olunma işlərinə cəlb edilə bilərlər.

### 2.4. Təhsil sisteminin idarə olunması ilə bağlı verilən təkliflərin qısa xülasəsi

1. Mülkiyyət formasından və təhsil pilləsindən asılı olmayaraq bütün təhsil müəssisələri lisenziya əsasında fəaliyyət göstərir.

2. Dövlətin müxtəlif qurumlarına təhsil sisteminin idarə olunması ilə bağlı verilmiş səlahiyyət və vəzifələr maksimum məhdudlaşdırılır və Xalq Təhsili Nazirliyinə verilir.

3. Xalq Təhsili Nazirliyi təhsil sistemində dövlətin maraqlarını təmsil edən əsas idarəetmə subyektidir. Onun səlahiyyət və vəzifələri mərkəzsizləşdirilmiş təhsil sisteminin prinsipləri əsasında müəyyənləşdirilir.

4. Təhsil müəssisələrinin özlərinin yaratdıqları özünüidarəetmə qurumları təhsil sisteminin 2-ci əsas subyekti olub aşağıdakılardan ibarətdir:

<u>dövlət təhsil müəssisələrində:</u>

- dövlət təhsil müəssisəsinin konfransı,
- dövlət təhsil müəssisəsinin şurası,
- dövlət təhsil müəssisəsinin nəzarət-təftiş şurası,
- dövlət təhsil müəssisəsinin rəhbəri;

<u>özəl təhsil müəssisələrində:</u>

---

[33] (4) - В.Т.Пугач. “О функциях высшего образования в условиях перехода к рыночной экономике”. Москва, 1991.

- özəl təhsil müəssisəsinin təsisçiləri,
- özəl təhsil müəssisəsinin konfransı,
- özəl təhsil müəssisəsinin nəzarət-təftiş komissiyası.

Xüsusi təhsil müəssisələrinin idarəetmə subyektləri, aidiyyatı olan qurumlar tərəfindən razılaşdırılır, qanun və ya digər normativ sənədlər əsasında müəyyənləşdirilir.

Bu təkliflər aidiyyatı olan dövlət qurumları tərəfindən qəbul olunarsa AR "Təhsil qanunu"nun III bölməsinin uyğun maddələrində müvafiq dəyişikliklər edilməlidir.

### 3. Təhsil sisteminin iqtisadiyyatı

*"Sərəncamımızda olan yeganə sərvətimiz papağımızın altında idi. Yaponiyanın dirçəlişi beyinlərimizdən necə istifadə etməyimizdən və fərasətimizdən asılı idi."*
K. Kobayasi "Yaponiya - ən çətin dərk olunan ölkə"

Coğrafi mövqeyinə görə Yaponiya demək olar ki, heç bir təbii ehtiyatlara malik deyildir. İkinci dünya müharibəsindən sonra Yaponiyanın bütün iqtisadiyyatı məhv edilmişdi. Heç bir maddi ehtiyatlara malik olmadan o, çox qısa müddətdə nəinki öz iqtisadiyyatını bərpa etdi, həm də dünyanın ən çox inkişaf etmiş ölkələri arasında irəli çıxdı. Yaponiyanın parodoksal iqtisadi inkişafının səbəblərini araşdıran müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislər bunun əsas səbəbini yapon xalqının *dinamik intellektual səviyyəsində* görürlər[34].

Elm və texnologiyaların inkişafı təhsil sisteminin səviyyəsindən birbaşa asılıdır. Ümumiyyətlə, elm üçün nəzərdə tutulan maliyyə vəsaitlərinin bir hissəsi yüksək ixtisaslı təhsilə yönəldilir. Yaponiyada bu mənada elmin inkişafı və yeni texnologiyaların yaradılması üçün ayrılmış maliyyə vəsaitinin ümumi həcmi digər inkişaf etmiş ölkələrdən üstündür. ABŞ-ın tanınmış ictimai-siyasi xadimi Cessi Cekson öz çıxışlarının birində ABŞ-ın sənaye və ticarət sahəsində öz mövqelərini itirdiyini bildirərək, bunun əsas səbəblərindən birini ABŞ-ın elmi-tədqiqat və təcrübi-layihə işlərinə ayırdıqları vəsaitlərin Yaponiyanın analoji işlər üçün ayırdığı vəsaitlərdən dəfələrlə az olmasında görür.

İkinci dünya müharibəsindən sonra Yaponiyanın iqtisadiyyatı tamamilə dağılmışdı. Ölkənin gələcəyi təhlükə altında idi. Ölkə qarşısında duran problemləri həll etmək üçün yeni texnika və texnologiyalar sahəsində təhsil almaq üçün hər il xaricə 50 "təhsil qrupu" göndərilirdi. Bu xətlə qısa müddət ərzində 18000 yüksək ixtisaslı mütəxəssislər hazırlanıb, Yapon iqtisadiyyatının müxtəlif sahələrinə cəlb olundu.[35]

Öz xalqını "*yeganə sərvət*" elan etmiş Yaponiya, xalqının intellektual səviyyəsini artırmaq üçün təhsil, elm, mədəniyyət sahələrinin inkişafına küllü miqdarda vəsaitlər ayırır. Bütün bunlar Yaponiyanın yeni əsrdə də öz mövqelərini saxlayacağına və daha yüksək nəticələr əldə edəcəyinə əsas verir.

Azərbaycanın 21-ci əsrdə inkişaf etmiş ölkələr səviyyəsinə çıxması üçün onun ABŞ, Yaponiya və digər inkişaf etmiş ölkələrin təcrübəsinə müraciət etməsi lazımdır. İnkişaf etmiş ölkələrin iqtisadi inkişaflarının müsbət təcrübələrini Azərbaycanın daxili imkanlarını və şəraiti nəzərə alaraq tətbiq etmək yeganə çıxış yolumuzdur. Bunun üçün Azərbaycanın bütün imkanları var - ***həm maddi sərvətləri, həm də intellektual insan ehtiyatları!*** Nəzərə alaraq ki, gələcəyin iqtisadiyyatı - yüksək

---

[34] Изотов А. "Япония: Концепция выхода в лидеры", 1991г.
Фишер Г. "Еще раз о причинах «японского экономического чуда»"
Виленский А., ЧуйкоА. "Япония: закономерность феномена"

[35] http://www.bankreferatov.ru/japan_99.zip

texnologiyalar iqtisadiyyatıdır, bu iqtisadiyyatı yaradacaq və inkişaf etdirəcək mütəxəssislərin yetişdirilməsi dövlətin ən əsas iqtisadi siyasəti olmalıdır.

Hələ 50-ci illərdə, ABŞ-ı hökumətinin "ABŞ-ın istedadlar ehtiyatı" adlı strateji əhəmiyyətli məruzəsində deyilirdi: *" ABŞ-ın müasir dövlət kimi inkişaf etməsi .., onun iqtisadi inkişafı, hərbi gücü və s. əsasən millətin əl-qolla deyil, başla işləyən hissəsindən asılıdır."*[36]

Azərbaycanda aparılması zəruri olan təhsil islahatı bu sosial institutu iqtisadiyyatının necə qurulmasından çox asılıdır. Mövcud qanunvericilik təhsilin iqtisadiyyatı ilə bağlı zəruri məsələləri kifayət qədər əhatə etmir. Azərbaycan Respublikasının "Təhsil Qanunu"nun cəmi iki maddəsi (53, 54-cü maddələr) təhsil sisteminin iqtisadiyyatına aiddir. Bu maddələrin məzmununda təhsil sisteminin iqtisadiyyatı ilə bağlı əsas qaydalar təəssüf ki, tam əhatə olunmayıb. 53-cü maddənin əvvəlində yalnız təhsil müəssisələrinin maliyyələşdirilməsinin əsas mənbəyi büdcə vəsaiti olması elan olunsa da, büdcə vəsaitinin təhsil müəssisəsinin hansı iqtisadi məsələlərinin həllinə yönəldiyi haqqında bir fikir yoxdur. Təhsilin maliyyələşdirilməsinin əlavə mənbələri haqqında müddəalar yalnız ali və orta peşə məktəblərinə şamil olunur. Digər təhsil müəssisələrinin maliyyələşdirilmə mənbələri göstərilməyib. Ümumiyyətlə "Təhsil Qanunu"nun 5-ci bölməsi - "Təhsil sistemi müəssisələrinin maliyyə- təsərrüfat fəaliyyəti və maddi-texniki bazası", mərkəzsizləşdirilmiş təhsil sistemininin tələblərinə uyğun gəlmədiyi üçün bütünlüklə dəyişdirilməlidir. Bundan başqa bu bölməni "Təhsilin iqtisadiyyatı" («Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nda uyğun bölmənin adı) adlandırmaq daha doğru olardı.

Təhsilin iqtisadiyyatı Azərbaycan Respublikasının "Təhsil Qanunun"da və Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyinin normativ sənədlərində aşağıdakı qaydaların müəyyən olunmasını tələb edir.

1. Təhsil müəssisəsinin illik büdcəsinin tərtib və icra olunma qaydaları;
2. Təhsil müəssisələrinin maliyyə-təsərüfat fəaliyyəti qaydaları;
3. Təhsil müəssisələrində təhsil alanların xərclərinin hesablanması və ödənilməsi qaydaları;
4. Təhsil müəssisələrində pedaqoji və digər işçilərin əməklərinin qiymətləndirilməsi qaydaları;
5. Təhsil müəssisələrinə, təhsil iştirakçılarına, mühüm təhsil proqramlarına dövlət tərəfindən müxtəlif şərtli faizsiz kreditlərin[37] ayrılması və ssudaların verilməsi qaydaları;
6. Təhsil sistemi iştirakçılarının sosial müdafiəsi sistemi;
7. Təhsil müəssisələrinə mülkiyyət kimi verilmiş (dövlət və ya bələdiyyə tərəfindən) torpaq, bina, müxtəlif tikililər, avadanlıqlar və digər sosial, mədəni obyektlərin saxlanılması, istismarı, əldə olunması, icarəyə verilməsi qaydaları;
8. Təhsil müəssisələrinin icarəçi kimi fəaliyyət göstərmə qaydaları;
9. Təhsil müəssisələrinin digər qeyri-təhsil institutları ilə iqtisadi əməkdaşlıq qaydaları;
10. Təhsil müəssisələrinin xarici ölkələrlə təhsil və qeyri-təhsil, dövlət və qeyri-dövlət subyektlərilə iqtisadi əməkdaşlıq qaydaları;
11. Ödənişli təhsildə təhsil haqqının hesablanması, ödənməsi və s. qaydaları;
12. Ali və orta peşə ixtisas təhsil müəssisələrində elmi-texniki araşdırmaların aparılması, yeni texnologiyaların yaradılması istiqamətində maliyyələşdirmə qaydaları (dövlət büdcəsindən və qeyri-dövlət müəssisələri tərəfindən);

Özəl təhsil müəssisələrinin bu normativ sənədlərin bir çoxundan (1, 2, 3, 5, 9, 10, 11, 12) öz iqtisadiyyatlarını qurarkən istifadə etmələri məqsədəuyğun olardı.

Müəyyən olunmuş qaydaların hüquqi xarakter daşıması üçün "Təhsil Qanunu"nun uyğun maddələrində dəyişikliklər etmək, əgər belə maddələr yoxdursa əlavə etmək məqsədəuyğun olardı. Bundan başqa o qaydalar ki, dinamik xarakter daşıyır və ya operativ müdaxilə tələb edir (zaman və

---

[36] "Образование в мире на пороге XXI века", Сборник научных трудов, Москва 1991,
"Высшее образование на современном этапе: тенденции и проблемы" , И.Б. Марцинковский

[37] uzunmüddəli, qısamüddətli, məqsədli, birdəfəlik, qaytarılmayan və s.

məkan daxilində) onları Azərbaycan Respublikasının Xalq Təhsili Nazirliyinin normativ sənədləri kimi təsdiq edib, dərc etmək lazımdır.

Bu qaydaların hazırlanması zamanı, mərkəzsizləşdirilmiş təhsil sisteminin tələbləri nəzərə alınmalıdır. Aşağıda bu qaydalarla bağlı zəruri hesab etdiyimiz müddəaları təklif edirik.

### 3.1. Təhsil müəssisəsinin illik büdcəsi

Dövlət büdcəsindən tam və ya qismən maliyyələşdirilən təhsil müəssisələri yeni maliyyə ilinin başlanmasına bir neçə ay qalmış (bu müddət müvafiq normativ aktlarla tənzimlənməlidir) Xalq Təhsil Nazirliyinə təqdim olunmalıdır. Təqdim olunan büdcənin hansı hissəsinin dövlət tərəfindən maliyyələşdiriləcəyi müəyyən olunduqdan sonra, Xalq Təhsili Nazirliyi təhsil müəssisəsi qarşısında, onun təqdim etdiyi büdcənin hansı hissəsini ödəcəyi haqqında öz üzərinə təhəddüdlər götürdüyünü rəsmi elan edir.

Mərkəzsizləşdirilmiş təhsil sistemi müəssisəsinin illik büdcəsi əsasən aşağıdakı hissələri əhatə etməlidir:

- əsas vasitələrin saxlanması, alınması, amortizasiyası, təmiri və s. üzrə illik büdcə xərcləri;
- enerji təminatıyla (elektrik, istilik, yanacaq) bağlı büdcə xərcləri;
- təhsil alanların bir illik büdcə xərcləri, o cümlədən:
- təhsil alanların xərcləri;
- pedaqoji işçilərin[38] əmək haqqı və əmək haqqına əlavələr;
- qeyri-pedaqoji işçilərin[39] əmək haqqı və əmək haqqına əlavələr.
- kitabxana fondunun saxlanılması və genişləndirilməsi xərcləri;
- telekommunikasiya xətlərindən və informasiya kanallarından (Internet, uzaq təhsil verən pullu TV kanallar) istifadə etməklə bağlı bir illik büdcə xərcləri;
- təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı müxtəlif təyinatlı təqaüdlər verən fondların təşkili (məsələn, ən yaxşı tələbə/şagird, ən yaxşı müəllim, ən yaxşı riyaziyyatçı tələbə/şagird, ən yaxşı riyaziyyat müəllimi və s.).

Təhsil müəssisəsinin büdcəsinin doldurulma mənbəyi əsasən dövlət büdcə vəsaitləridir. Ümumiyyətlə dövlət elə sosial institutları büdcədən maliyyələşdirir ki, bu sosial institutlar dövlətin dayaqlarını təşkil edir və özəl sektor tərəfindən maliyyələşdirilmir və ya zəif maliyyələşdirilir. Hərb, mədəniyyət, elm, səhiyyə, təhsil belə sosial institutlardandır. Təhsil sahəsinin dövlət tərəfindən maliyyələşdirilməsi, gələcəkdə müasir tələblərə cavab verən digər sosial institutların inkişafı üçün əsas yaradır.

Məsələn İngiltərədə təhsil sisteminə rəhbərlik edən Təhsil nazirliyi orta məktəblərin büdcəsinin 60%-ni verir, büdcəsinin 40%-ni bələdiyyələr doldurur[40]. Ali məktəblərdə isə dövlət büdcə təminatı ilə yanaşı, ali məktəblərə sahibkarlıq imkanlarının verilməsi nəticəsində əldə olunan maliyyə vəsaitləri təhsil büdcəsinin əsas hissəsini təşkil edir. ABŞ-da isə qeyd etdiyimiz kimi məktəblərin büdcələri bir qədər başqa cür doldurulur: məktəbin büdcəsinin 50%-ni həmin bölgədə yaşayan əhalidən yığılan vergilər, 40% bələdiyyənin verdiyi vəsaitlər və yalnız 10%-ni federal büdcədən ayırmalar təşkil edir.[41] İnkişaf etmiş ölkələrin idarəçəlik sistemlərində, büdcənin təşkil olunma prinsiplərində fərqlər olmasına baxmayaraq, bu dövlətlər məktəblərin real ehtiyaclarını ödəmək üçün yalnız trivial dövlət büdcə ayırmalarından deyil eyni zamanda müxtəlif effektiv üsullardan istifadə edirlər. Gömrük, vergi, antiinhisar, sahibkarlıq fəaliyyəti ilə bağlı digər qanun və

---

[38] Təhsil müəssisəsinin rəhbəri və onun təlim-tərbiyyə üzrə müavinləri pedaqoji işçi statusu daşıyır.

[39] Təhsil müəssisəsinin təssərüfat üzrə müdiri, kitabxanaçısı, tibb bacısı, xadimələr, qarovulçular qeyri-pedaqoji işçi statusu daşıyır.

[40] http://www.bankreferatov.ru/ Obrazovanie v Anqlii

[41] "Məşvərət" bülleteninin sentyabr 2000-ci il 7(31) sayında, səh. 18

qanunvericilik aktlarında təhsil sisteminin maliyyələşdirilməsi işinə yardım edəcək maddələr əlavə edir və ya mövcud maddələrdə uyğun dəyişikliklər edirlər.

Azərbaycan Respublikasının dövlət büdcəsinin 20%-dən çoxu təhsil sisteminə yönəldilib[42] (əsasən pedaqoji işçilərə əmək haqqı kimi verilir). Təhsil müəssisələrinin cari və kapital təmiri, yeni avadanlıqların alınması lazım olan vəsaitlər yerli idarəetmə orqanları tərəfindən (1999-cu ilə qədər yalnız rayon icra hakimiyyətləri, indi isə bələdiyyələr tərəfindən) ayrılmalı idi. Qeyd etdiyimiz kimi[43] yerli idarəetmə orqanları bu vəzifəni yarıtmaz icra etmişlər.

Təhsil müəssisələrində cari və kapital təmir işləri ən yaxşı halda valideynlərin hesabına yerinə yetirilib. Müstəqillik əldə etdiyimiz gündən bu günə qədər Azərbaycanın təhsil müəssisələri öz problemləri ilə üz-üzə tək qalmış, dövlət bu işdə faktiki heç bir real addım atmamış - yalnız pedaqoji işçilərin maaşlarının verilməsinin təşkili ilə kifayətlənmişdir. Qanunvericiliklə nəzərdə tutulmuş təhsil sisteminin maliyyələşdirilməsinin dövlət təminatının olmaması nəticəsində bu "*maliyyələşdirmə*" işlərini könüllü və ya zorla valideynlər yerinə yetirmişlər. Qanundan kənar maliyyələşdirmələr təhsil sistemində korrupsiyanın ayaq açmasına şərait yaratmışdır.

Təklif etdiyimiz kimi təhsil müəssisəsinin illik büdcəsinin tərtib və icra olunma qaydalarını Xalq Təhsil Nazirliyi hazırlamalıdır. Bu qaydaları hazırlayarkən aşağıdakı prinsipial müddəaları nəzərə almaq məqsədə uyğun görünür:

1. Dövlət büdcəsinin indiki səviyyəsində təhsil üçün ayırılmış vəsaitlərin *məktəbdə təhsil alanların sayına* müvafiq şəkildə birbaşa dövlət təhsil müəssisələrinin hesablaşma hesablarına köçürülməsi;
2. Dövlət büdcəsindən maliyyə ayırmalarının icrasına nəzarət edilməsi;
3. İcra hakimiyyəti orqanlarının və bələdiyyələrin təhsilin iqtisadiyyatı ilə bağlı öz üzərilərinə götürdükləri təhəddüdlərin yerinə yetirilməsinə nəzarət edilməsi.

Təhsil müəssisəsinin, dövlət standartları[44] nəzərə alınmaq şərti ilə büdcəsinin hazırlanması və icrası Təhsil Şurası tərəfindən yerinə yetirilməlidir.

### 3.2. Təhsil sisteminin iqtisadiyyatında aparılması zəruri olan islahatlar

Təhsil müəssisəsinin büdcəsi hazırlanarkən aşağıdakı islahatların aparılması məqsədəuyğun görünür.

#### *3.2.1. Dərs yükü və pedaqoji nəticələr*

Azərbaycan Respublikası "Təhsil qanunu"nun 50-ci maddəsinin 5-ci bəndi: "5. *Ümumtəhsil və texniki-peşə müəssisələrinin həftəlik tarif stavkası 12 saat müəyyən olunur. Həftəlik dərs yükü bir qayda olaraq, 12*[45] *saatdan, yəni 1,5 stavkadan çox ola bilməz. Qalan təhsil müəssisələri professor-müəllim heyətinin ümumi dərs yükü 450-500 saatdan çox ola bilməz. Müstəsna hallarda 1,5 stavka həcmində dərs aparılmasına icazə verilir*" təhsil sisteminin iqtisadiyyatında (birinci növbədə, əmək haqqı sahəsində) aparılmalı olan zəruri islahatlara ən çox mane olacaq müddəadır[46].

---

[42] 1999-cu ildə təhsilə üçün ayrılmış büdcə vəsaiti 860 212 000 000 man (büdcə xərclərinin 21,7%) olub. "Azərbaycan müəllimi" qəzeti, №5, 4.02.1999

[43] "Məşvərət" bülleteninin sentyabr 2000-ci il 7(31) sayında, səh. 21

[44] Çox təəssüf ki, keçmiş SSRİ-nin təhsillə bağlı dövlət standartları uzun müddət keçməsinə baxmayaraq qüvvədədir. Yeni standartların yaradılması prosesi çox zəif gedir.

[45] «*Həftəlik dərs yükü bir qayda olaraq, 12 saatdan, yəni 1,5 stavkadan çox ola bilməz*» cümləsində çap səhvi gedib. Çap zamanı «18 saat» əvəzinə «12 saat» gedib.

[46] Ümumiyyətlə, onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul olunmuş qanunların bir çoxunda dəyişkən (zaman və şəraitdən asılı olaraq) müddəaları qanun maddəsi kimi vermək düzgün deyil. Belə müddəalar digər normativ sənədlər vasitəsilə nizamlanmalıdır.

Təklif etdiyimiz mərkəzsizləşdirilmiş təhsil sistemində dərs yükünün və əmək haqqının miqdarı təhsil müəssisəsi tərəfindən müəyyən olunmalıdır. Burada əsas meyar *"pedaqoji nəticələr"* olmalıdır.

Qanun qəbul olunan zaman (1992-ci il) dərs yükünün 12 saatla (ümumtəhsil məktəblərində) və ya 450-500 saatla (ali məktəblərdə) məhdudlaşdırılması əsasən təhsilin keyfiyyətini yüksəldib, inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmaq məqsədi güdürdü[47]. Dərs yükünün azaldılması müəllimin əmək haqqına təsir etməməliydi. Bununla bağlı "Təhsil qanunu"nun 50-ci maddəsinin 1-ci bəndində *"...1993-cü ildən başlayaraq tədriclə qabaqcıl ölkələrin təhsil işçilərinin əmək haqqı səviyyəsinə çatdırılır...*" müddəası yerinə yetirilmədi və indi yerinə yetirilməsi daha ciddi sual altındadır.

İlk baxışda əmək haqqının saxlanılıb dərs yükünün azaldılması müəllimlərin maddi vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində atılmış müsbət addım kimi qiymətləndirilə bilərdi. Çox təəssüf olsun ki, bu belə deyil. Stavkanın 18 saatdan 12-a endirilməsi nəticəsində (təqribən 30%), təhsilə ayrılmış büdcə xərclərinin 30% artırılmalı idi. Bu isə öz-özlüyündə qeyri-mümkündür. Son illərdə büdcə xərcləri ilə bağlı statistikadan (1996-2000-ci illər üzrə) məlum olur ki, təhsil sisteminin xərcləri 19% -24% aralığındadır. Bu maksimal hədd olub artırılması isə qeyri-mümkündür. Nəticədə müəllimin əldə edə əmək haqqı kimi əldə edə biləcəyi vəsait 30% azaldıldı. Bundan başqa Azərbaycan Respublikasının “Təhsil Qanunu”nda təsbit olunmuş bir çox güzəştlər (50-ci maddə və bu maddəyə əlavələr) ləğv olunduğu üçün müəllimlərin maddi vəziyyəti daha da ağırlaşdı. Müəllimlərin maaşlarının artırılması isə manatın dəyərinin aşağıya düşməsi nəticəsində pedaqoji işçilərə dəyən ziyanı qismən ödədi. Müəllimlərin dərs yükünün azaldılması nəticəsində bir çox təcrübəli pedaqoqlar məktəbdən uzaqlaşdılar və ya əlavə gəlir mənbələri (bəzən hətta korrupsiya xarakterli) axtarışına başladılar. Əlbəttə, ailəsinin gündəlik maddi ehtiyacları haqqında fikirləşən müəllimin təhsilin səviyyəsini yüksəldəcəyi haqqında düşünmək yersizdir.

Dünyada müəllim və onların dərs yükləri haqqında UNESCO-nun statistik göstəriciləri [2, səh. 69] əsasında aşağıdakılar məlum olur.

**1-ci cədvəl . Bəzi ölkələrdə ibtidai və əsas/orta sinif müəllimlərinin dərs yükü (saatla)**

| Ölkə | ibtidai sinif müəlliminin dərs yükü (saat) | əsas və orta sinif müəlliminin dərs yükü (saat) |
|---|---|---|
| Avstriya | 20 | 25 |
| Fransa | 24 | 18 |
| Almaniya | 27 | 24 |
| İtaliya | 22 | 18 |
| Meksika | 20 | 30 |
| Yaponiya | 18 | 14 |
| Türkiyə | 25 | 20 |

[47] Müəyyən olunmuş dərs yükləri inkişaf etmiş ölkələrdən yalnız Yaponiya ilə müqayisə oluna bilər (1-ci cədvəl). Əldə olunan məlumata əsasən, Azərbaycanda müəllimlərin dərs yükünün miqdarı Yaponiyadakı kimi götürülüb. Yaponiyada 1 dərs saatının qiyməti kifayət qədər yüksəkdir. Məhz buna görə orada müəllimin maaşı mühəndisin əmək haqqından çoxdur.

Dərs yüklərinin miqdarı ölkədən ölkəyə fərqlənir. Bu dərs yüklərinin miqdarını standart kimi qəbul edərək, Azərbaycana tətbiq etmək düzgün deyil, çünki bu saatlar həmin ölkələrə məxsus bir çox xüsusi şərtlər əsasında formalaşıb.

**2-ci cədvəl. Dövlət təhsil müəssisələrində müəllimlərin sayı [1] (min nəfər)**

| Təhsil müəssisələri | 1990-1991 | 1993-1994 | 1994-1995 | 1995-1996 | 1996-1997 | 1997-1998 | 1998-1999 | 1999-2000 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumtəhsil məktəbləri (ibtidai, əsas, orta məktəblər üzrə) | 132 | 148 | 153 | 159 | 156 | 157 | 158 | 161 |
| Orta ixtisas məktəbləri | 4,872 | 4,546 | 4,601 | 4,580 | 4,532 | 4,294 | 4,524 | 4,923 |
| Ali məktəbləri | 8,541 | 9,831 | 9,936 | 10,511 | 10,200 | 10,615 | 11,468 | 10,726 |
| Cəmi | 145,41 | 162,38 | 167,54 | 174,09 | 170,73 | 171,91 | 173,99 | 176,65 |

2-ci cədvəldən göründüyü kimi, 1993-1999-cu tədris illərində təhsil müəssisələrində dərs deyən müəllimlərin sayı ümumtəhsil məktəblərində 22%, orta ixtisas məktəblərində 1%, ali məktəblərdə 25,5% artmışdır.

"Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı"nın 11-ci səhifəsindəki (1-ci cədvəl) statistik məlumatları araşdırdıqda aşağıdakı nəticələr alınır.

**3-cü cədvəl. 1998-ci ildə Azərbaycanda təhsil alanların sayının pedaqoji işçilərin sayına olan nisbəti (və ya 1 müəllimə düşən şagirdlərin/tələbələrin sayı)**

| **müəssisə** | **bir müəllimə düşən şagird** |
|---|---|
| məktəbəqədər təhsil müəssisələrində | 7 |
| ümumtəhsil məktəblərində | 10 |
| o cümlədən: | |
| peşə litseylərində | 6 |
| peşə məktəblərində | 6 |
| orta ixtisas məktəblərində | 7 |
| o cümlədən: | |
| qeyri-dövlət məktəblərində | 5 |
| ali məktəblərdə | 8 |
| o cümlədən: | |
| qeyri-dövlət məktəblərində | 19 |

müəyyən olunub. Bu göstəricilər inkişaf etmiş ölkələrin göstəricilərindən kəskin şəkildə fərqlənir [2, səh. 144].

**4-cü cədvəl. İnkişaf etmiş ölkələrdə təhsil alanların sayının pedaqoji işçilərin sayına olan nisbəti (və ya 1 müəllimə düşən şagirdlərin/tələbələrin sayı)**

| **ölkə** | **məktəbəqədər** | **əsas** | **orta** |
|---|---|---|---|
| ABŞ | - | 16 | 15 |
| Yaponiya | 17 | 18 | - |

| | | | |
|---|---|---|---|
| İngiltərə | 35 | 19 | 13 |
| Almaniya | 20 | 18 | 14 |
| Fransa | 25 | 17 | - |
| Türkiyə | 16 | 28 | 27 |

Dərs yükünün düzgün müəyyən olunmaması nəticəsində Azərbaycan Respublikasında pedaqoji işçilərə *süni şəkildə böyük tələbat* əmələ gəlmişdir (xüsusilə Azərbaycanın kənd və rayon təhsil müəssisələrində). Bu tələbatı ödəmək üçün bir çox ali və orta ixtisas təhsil müəssisələri əsasən yeni *pedaqoji kadrlar* hazırlamaqla məşğuldur. Bu isə öz növbəsində təhsil sistemində kadrların yerləşdirilməsi, əmək haqlarının verilməsi, təhsilin keyfiyyəti və s. ilə bağlı problemləri daha da dərinləşdirir.

**5-ci cədvəl. Dövlət təhsil müəssisələrini qurtarmış pedaqoji mütəxəssislər [1]**

| müəssisə | 1990 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|
| orta ixtisas təhsil müəssisələri | 1700 | 1800 | 1500 | 1000 | 800 | 1100 | 1500 | 1600 |
| ali ixtisas təhsil müəssisələri | 7200 | 6100 | 5300 | 7200 | 8200 | 9900 | 7000 | 6500 |
| cəmi | 8900 | 7900 | 6800 | 8200 | 9000 | 11000 | 8500 | 8100 |

**6-cı cədvəl. Özəl təhsil müəssisələrində pedaqoji sahədə təhsil alanlar [1]**

| Göstəricilər | 1995/96 | 1997/98 | 1998/99 |
|---|---|---|---|
| özəl ali ixtisas müəssisələri | 4600 | 1900 | 3800 |
| özəl orta ixtisas təhsil müəssisələri | 1300 | 200 | 300 |
| cəmi | 5900 | 2100 | 4100 |

5-6-cı cədvəllərdən göründüyü kimi, hər il Azərbaycanda pedaqoji kadrların sayı təqribən 10.000 nəfərdən çox (18%) artır. Bu problemin tezliklə həll olunması üçün pedaqoji kadrların hazırlanması ilə bağlı dövlət sifarişinə təcili olaraq yenidən baxılmasını və onun minimuma endirilməsini təklif edirik.

Normativ sənədlərdə məktəbəqədər və ümumtəhsil müəssisələrində müəllimin gündəlik maksimum dərs yükü 1 gündə 6 saatla (yəni 1 həftədə 36 saatla) məhdudlaşmalı, dərs yükünün minimum həddinin müəyyənləşdirilməsi təhsil şurasının ixtiyarına buraxılmalıdır. Əmək haqqı *stavka* ilə deyil, *saatla* hesablanmalıdır. Təcrübə, yaş, ixtisasını dərindən bilmək, şəxsi keyfiyyətlər və s. müəllimin dərsinin keyfiyyətinə - *pedaqoji nəticələrə*_birbaşa təsir edən amillərdir və bu amillər əsasında dərs yükünün miqdarı və əmək haqqı (1 saat dərsin qiyməti) müəyyən olunmalıdır. Mövcud təhsil sistemində müəllimin kateqoriyası attestasiya vasitəsilə müəyyənləşdirilir. Dövlət tərəfindən nizamlanan bu sistem mərkəzsizləşdirilmiş təhsil sisteminə uyğun gəlmir. Müəyyən kateqoriya almış müəllimdə arxayınlaşma gedir, öz üzərində iş zəifləyir. Kateqoriya *daimi verilmiş imtiyaz* xarakteri daşıyır. Müəssisəsinin təhsil şurası hər bir müəllimin dərs yükünü və əmək haqqını fərdi şəkildə, *pedaqoji nəticələr* əsasında müəyyən etməlidir.

Mərkəzsizləşdirilmiş təhsil sistemində müəllimlərin əməklərinin qiymətləndirilməsi *pedaqoji nəticələr* əsasında aparılmalıdır. Pedaqoji nəticələrə görə əməyin qiymətləndirilməsi dedikdə biz əsasən aşağıdakıları nəzərdə tuturuq:

- Hər bir şagirdin/tələbənin bütün fənlər üzrə bilik səviyyəsi müəyyən metodlar (yoxlama işləri, test tapşırıqları və s.) vasitəsilə, məsələn, 100 ballıq qiymətləndirmə sistemində müəyyənləşdirilir. Şagirdlərin/tələbələrin *minimal bilik səviyyəsi* Təhsil Nazirliyi tərəfindən müəyyən olunur, təhsil sisteminin inkişaf səviyyəsindən asılı olaraq dəyişdirilir.

- Növbəti yoxlama nəticəsində şagirdin/tələbənin bilik səviyyəsinin dəyişmə əmsalı müəyyən olunur.
- Şagirdlərin/tələbələrin ümumi bilik səviyyəsinin dəyişmə əmsalı vasitəsilə müəllimlərin əməyi fərdi şəkildə qiymətləndirilir (minimum əmək haqqının üzərinə əlavələr).
- Minimum təhsil verməyə qadir olmayan *müəllim* dərhal təhsil sistemindən uzaqlaşdırılır.

Onu da qeyd etmək lazımdır ki, bu sahədə müəyyən müsbət təcrübə var. "Tələbə Qəbulu üzrə Dövlət Komissiyyası"nın (TQDK) məlumat bazasında yığılmış informasiyanın işlənməsinin nəticəsi olan "*Abituriyent*" jurnalına əlavə olunmuş statistik məlumatlar kitabçasından respublika, rayon və məktəblər üzrə təhsilin səviyyəsi haqqında zəruri məlumatlar əldə etmək olar. Statistik məlumatlar arasında 7-ci cədvəl - "Rayon məktəblərinin göstəriciləri" diqqəti daha çox cəlb edir. Belə ki, bu cədvəldə ayrı-ayrı fənlər üzrə **məktəblərin** "*pedaqoji nəticələri*" 100 ballıq qiymətləndirmə şkalasında müəyyən olunmuşdur. Təhsil Nazirliyinin bu müsbət təcrübəni məktəbəqədər, ibtidai, əsas və orta təhsil pillələrinə tətbiq etməsi məqsədəuyğun olardı.

Təklif olunan *pedaqoji nəticələrə* görə əməyin qiymətləndirilməsi prinsipi mərkəzsizləşdirilmiş təhsil sisteminin əsas iqtisadi prinsipidir. Təhsilin iqtisadiyyatını bu prinsip əsasında qurmaq üçün yeni təhsil texnologiyalarının tətbiqinə ehtiyac var.

***3.2.2. Pedaqoji kadrların sayı***

Pedaqoji kadrların sayını "*20-25 şagird/tələbəyə 1 müəllim*"[48] nisbətində müəyyən etməklə, pedaqoji kadrların əmək haqlarını pedaqoji nəticələr nəzərə alınmaqla 2-4 dəfə artırmaq olar.

Təhsil alanların müəllimlərə olan nisbətini təhsilin pilləsinə görə müəyyən etmək məqsədəuyğun olar. Belə ki, təhsilin aşağı pillələrində (məktəbəqədər və ibtidai) təlim-tərbiyə prosesinin yüksək diferensasiyası tələb olunduğu üçün 1 müəllimə düşən şagirdlərin sayını minimuma endirmək lazımdır (məsələn, 12-14 şagird). Sosioloji və psixoloji tədqiqatlara əsasən, insanın intellektinin 80%-i məhz bu dövrdə formalaşır. Təhsilin aşağı pillələrində keyfiyyətli təlim-tərbiyə görməmiş uşaqlardan təhsilin yuxarı pillərində yüksək nəticə gözləmək mümkün deyil. Onu da qeyd edək ki, Azərbaycanda ibtidai siniflər üçün nəzərdə tutulmuş tədris proqramları beynəlxalq standartlar əsasında hazırlansa da, təhsilin aşağı pillələrindəki vəziyyət, kadrların hazırlıq səviyyəsi, yeni təhsil texnologiyaları nəzərə alınmamışdır. Nəticədə bu proqramlar üzrə tədrisin nəticəsi çox aşağıdır.

"*Müəllimi seçmək*"[49] prinsipi öz növbəsində müəllimlərin sayını və onların tədris etdikləri dərslərin keyfiyyətini tənzimləyən mexanizm olub, təhsilin iqtisadiyyatına birbaşa təsir göstərir. Təhsil islahatlarında bu prinsipin normativ aktlar vasitəsilə təsbit olunmasına ehtiyac var.

İnkişaf etmiş ölkələrdə təhsil sistemi yeni texnologiyaların tətbiq edilməsilə, *intensiv* şəkildə inkişaf etdirilir. Çox təssüflər olsun ki, ölkəmizdə təhsil sisteminin *ekstensiv* inkişafı (müəllimlərin sayının artırılması, sinifdə şagirdlərin sayının azaldılması və s.) əsas götürülmüş və nəticədə təhsil sahəsində ağır böhranlı vəziyyət yaranmışdır. *Müasir təhsil texnologiyalarını tətbiq etmədən və bu texnologiyalardan istifadə etmək qabiliyyətinə malik pedaqoji kadrlar hazırlamadan biz bu böharandan çıxa bilməyəcəyik.*

Ənənəvi təhsil metodlarını saxlamaqla sinifdə şagirdlərin sayının artırılması və ya azaldılması vasitəsilə yüksək nəticələrə nail olmaq mümkün deyil. Bunun üçün birinci növbədə təhsil sisteminə yeni texnologiyaları (kompüter, uzaq təhsil və s.) tətbiq etmək lazımdır. Məhz bu texnologiyaların tətbiqi ilə müəllim hər bir şagirdlə fərdi məşğul olmaq imkanı qazanacaq. Bu zaman sinifdəki şagirdlərin/tələbələrin sayını bir neçə dəfə artırmaq imkanları əmələ gələcək.

Kadr sahəsində aparılası islahat nəticəsində:

- pedaqoji kadrlar arasında müsbət rəqabət əmələ gələcək;

---

48 Bax: "Məşvərət" bülleteninin 5(29)-ci sayı, səh.49.

49 Hər bir şagird/tələbə (14 yaşına çatmış) və ya onların valideynləri hər hansı bir fənn üzrə tədris edən müəllimi seçmək hüququna malik olmalıdır.

- pedaqoji kadrların real əmək haqqı artacaq, bununla da təhsilə yüksək ixtisaslı pedaqoji kadrların axını güclənəcək, *təsadüfi müəllimlərin* sayı azalacaq;
- pedaqoji kadrlarda öz ixtisas səviyyəsini artırmağa maraq əmələ gələcək;
- təlim-tərbiyə prosesinin keyfiyyəti artacaq;
- rayon-kənd təhsil müəssisələrinin kadr təminatı yaxşılaşacaq;
- "*müəllim*" ixtisasının hörməti yüksələcək[50];
- müəllimlər əlavə qazanc mənbələri axtarmayacaqlar.

Kadrlar, onların əmək haqqının miqdarı, ali və orta ixtisas təhsil müəssisələrinə yeni pedaqoji kadrların hazırlanması sahəsində verilən dövlət sifarişləri sahəsində aparılmalı olan islahatlar *şok terapiyası* xarakteri daşısa da təhsil sistemi iqtisadiyyatının yenidən qurulması işində ən zəruri addımdır. Bu addım dövlət tərəfindən atılarsa böyük narazılığa səbəb ola bilər. Kadrlarla bağlı zəruri islahatları təhsil müəssisələrində yaradılacaq təhsil şuraları aparmalıdır, çünki bu şuralar yüksək təhsil sisteminin yaradılmasında və bu sistemdə yüksək ixtisaslı pedaqoji kadrların fəaliyyətində maraqlıdır. Onu da təkrarən qeyd edək ki, ***yaradılması zəruri olan təhsil şurası təhsil alanlar (yaş nəzərə alınaraq) və onların valideynləri tərəfindən təşkil olunur.***

*Kadrlarla bağlı aparılması zəruri olan bu islahatda məqsəd dövlət büdcəsinə qənaət etmək deyildir. Məqsəd əldə olunan əlavə vəsaitlərin təhsil sisteminin müxtəlif sahələrinə, birinci növbədə pedaqoji kadrların əmək haqqlarının bir neçə dəfə qaldırılmasına yönəldilməsidir.*

Hal-hazırda dövlət büdcəsindən təhsil sistemi üçün ayrılmış vəsaitlərin təqribən 63%-i müəllimlərə əmək haqqı kimi verilir. [2, səh. 160]. Bu rəqəm inkişaf etmiş ölkələrin göstəricilərinə yaxındır.

**7-ci cədvəl. İnkişaf etmiş ölkələrdə müəllimlərə verilən əmək haqqı (təhsilə ayrılmış bütün vəsaitin hissəsi, %-lə) (1995-ci il)**

| ölkə | ə/h (%-lə) |
|---|---|
| ABŞ | 52.9 |
| Yaponiya | 77.6 |
| İngiltərə | 48.6 |
| Almaniya | 83.1 |
| Fransa | 77.1 |
| Türkiyə | 86.7 |

## Ədəbiyyat


- "AZƏRBAYCANIN STATİSTİK GÖSTƏRİCİLƏRİ - 2000", "Sosial məsələlər" fəsli, "Təhsil, elm və mədəniyyət" bölməsi.
- "World education report 1998", "Teachers and teaching in a changing world".
- "Bakı şəhəri <rayonun adı> rayonunun abituriyentlərinin 1999/2000-ci tədris ili üçün keçirilən qəbul imtahanlarındakı nəticələrinə dair statistik məlumatlar", TQDK, Bakı, 1999.
- "Bakı şəhəri <rayonun adı> rayonunun 2000-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinə dair statistik məlumatlar", TQDK, Bakı, 2000.


[50] İnkişaf etmiş ölkələrdə müəllim lisenziyası almaq üçün çox yüksək tələblər mövcuddur. Bu ölkələrdə müəllim sənətinə yiyələnmək üçün gənc mütəxəssislər çoxlu "süzgəc"lərdən keçir. Təhsil sistemi kadrları üçün müəyyən olunmuş bu "süzgəc"lərdən təsadüfi şəxslərin keçməsi qeyri-mümkündür. Məhz bu səbəbdən müəllim sənəti ən "nüfuzlu" sənət hesab olunur.